**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASININ CƏNUB-ŞƏRQ BÖLGƏSİNİN SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ İNKİŞAFI (2003-2018-ci illər)

İxtisas: 5503.02 – Vətən tarixi

Elm sahəsi: Tarix

İddiaçı: **Emin Nazir oğlu Məlikov**

Elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2023**

Dissertasiya işi AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan Respublikasının tarixi" şöbəsində yerinə yetirilmişdir.

Elmi məsləhətçi: AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor
**Yaqub Mikayıl oğlu Mahmudov**

Rəsmi opponentlər: Tarix elmləri doktoru, professor
**İradə Mehdiqulu qızı Hüseynova**

Tarix elmləri doktoru, dosent
**İbrahim Feyzulla oğlu Kazımbəyli**

Tarix elmləri doktoru, dosent
**Xəzər Allahverdi oğlu Hüseynov**

Tarix elmləri doktoru, dosent
**Nazim Rəhbər oğlu Məmmədov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor
______________ **İsmayıl Muxtar oğlu Hacıyev**

Dissertasiya şurasının elmi katibi: Tarix elmləri doktoru, dosent

_____________ **Emin Arif oğlu Şıxəliyev**

Elmi seminarın sədri: Tarix elmləri doktoru, dosent
_______________ **Fəxrəddin Adil oğlu Cəfərov**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir Azərbaycanın qurucusu Ümummilli lider Heydər Əliyevin sosial-iqtisadi siyasəti nəticəsində ölkədə iqtisadi sabitliyə nail olunmuş və bununla dinamik sosial-iqtisadi inkişafın təməli qoyulmuşdur. Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu iqtisadi inkişaf strategiyası ölkənin davamlı inkişafını təmin etmişdir. Həyata keçirilən Dövlət Proqramları (2004-2018) nəticəsində regionların iqtisadi potensialı nəzərə alınmaqla investisiya qoyuluşu artmış, müasir texniki avadanlıqlar və texnologiyaların tətbiqi həyata keçirilmiş, sənaye, kənd təsərrüfatı sahələri yenidən qurulmuşdur. Ölkənin xarici ticarət dövriyyəsi xeyli genişləndirilmiş, dünyanın 190 ölkəsi ilə ticarət əlaqələri yaradılmış, qeyri-neft sektoru 4,2 dəfə artmışdır.

Ölkədə həyata keçirilən iqtisadi islahatların müsbət nəticəsi kimi qeyd etmək lazımdır ki, 2018-ci ildə özəl sektorun payı ümumidaxili məsulla 80 faizdən, məşğulluqda isə 75 faizdən çox olmuş, qeydiyyata alınmış sahibkarlıq subyektlərinin sayı 950 mini keçmişdir. Prezident İlham Əliyevin müvafiq fərman və sərəncamları ilə Sumqayıt və Mingəçevir şəhərlərində sənaye parkları, Masallı, Sabirabad, Hacıqabul şəhərlərində sənaye məhəllələri yaradılmışdır. Regionların inkişafında sənaye zonaları, sənaye parkları və texno-parkların yaradılması, ölkə ərazisində düzgün yerləşdirilməsi və fəaliyyət göstərməsi ölkənin sosial-iqtisadi inkişafında mühüm əhəmiyyətə malikdir. Prezident İlham Əliyev çıxışında qeyd etdiyi kimi, *"Bütövlükdə ölkəmizdə – bütün bölgələrdə, bütün rayonlarda inkişaf sürətlə gedir. Ölkəmizin bu uğurlu inkişafı əlbəttə ki, xalqımızı da sevindirir, Azərbaycanın beynəlxalq nüfuzu bizim gücümüzü artırır və iqtisadi sahədə aparılmış düzgün siyasət öz bəhrəsini verir. Azərbaycan iqtisadiyyatı dayanıqlı iqtisadiyyatdır. Biz iqtisadi baxımdan heç kimdən asılı deyilik, biz özümüz öz taleyimizin sahibiyik. Güclü iqtisadiyyat, düşünülmüş iqtisadi siyasət, maliyyə imkanlarımızın genişləndiril-*

*məsi imkan verir ki, bütün bölgələrdə, ən ucqar yerlərdə gözəl layihələr icra edilsin”.*[1]

Azərbaycanda iqtisadi siyasət iqtisadiyyatın şaxələndirilməsinə, qeyri-neft sektorunun tərəqqisinə yönəldilmişdir. İqtisadi cəhətdən güclü ölkəmiz Vətən müharibəsi dövründə Ermənistan hərbi qüvvələrini darmadağın etdi. Azərbaycan Ordusunun həyata keçirdiyi “Dəmir Yumruq” əməliyyatının ilk günlərində Füzuli, Tərtər rayonları istiqamətində və Murovdağda bir çox strateji məntəqələr azad edilmişdir. Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq düşməni məğlub etdi və işğala son qoydu.Vətən müharibəsində Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət Azərbaycan xalqının tarixi qələbəsini zəruri etmiş və ərazi bütövlüyümüzün bərpası ölkəmizin sosial-iqtisadi inkişafında əsas rol oynayacaqdır. Bölgədən səfərbər olunan Vətən övladları düşmənə qarşı inadla mübarizə aparmış və dövlətçilimizin qorunmasında canlarını belə əsirgəməmişlər. Vətən müharibəsi dövründə qəhrəmancasına şəhid olan 2904 nəfər hərbçidən 400 nəfərdən çoxu respublikanın cənub-şərq bölgəsinin payına düşmüşdür.

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 noyabr tarixli “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” Fərmanı ölkənin inkişaf istiqamətlərini müəyyənləşdirmişdir. “2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı”, “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı üzrə Dövlət Proqramı (2002-2005-ci illər)”, “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları (2004-2018-ci illər)” qəbul olunmuş və sənədlərdən irəli gələn vəzifələrin yerinə yetirilməsi, regionlarda infrastruktur layihələrinin həyata keçirilməsi əhalinin sosial rifahını yaxşılaşmış, bununla yanaşı respublikanın cənub-şərq bölgəsinin inkişafını təmin etmişdir. Azərbaycanın Respublikasının sosial-iqtisadi inkişafı beynəlxalq təşkilatların hesabatlarında da öz müsbət əksini tapmışdır. Belə ki, Dünya Bankı-

[1]Lerik şəhərinin içməli su təchizatı sisteminin yenidən qurulması və ilk dəfə olaraq kanalizasiya şəbəkəsinin yaradılması layihəsinin icrası başa çatıb // Azərtac, – 2018, 15 oktyabr. – https://mst.gov.az/az/news/13

nın "Doing Business 2019" hesabatına görə Azərbaycan əvvəlki illə müqayisədə reytinqdə 32 pillə irəliləyərək, 57-ci yerdən 25-ci pilləyə yüksəlmişdir. Sənədə əsasən, 10 indikatordan 8-i üzrə öz mövqeyini daha da yaxşılaşdıran ölkəmiz dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilmişdir.

Mövzunun aktuallığı həm də onunla izah olunur ki, müasir dövrdə ölkədə baş verən iqtisadi yüksəliş regionların sosial-iqtisadi inkişafında da mühüm əhəmiyyət kəsb edən dəyişikliklərə gətirib çıxartmışdır. Bu istiqamətdə həyata keçirilmiş islahatlar qeyri-neft sektorunun inkişafına təkan vermiş, bu da öz növbəsində iqtisadiyyatın ayrı-ayrı sahələrinin artımına səbəb olmuşdur. İnkişaf respublikanın cənub-şərq bölgəsində də əksini tapmış, bu sahədə mühüm dövlət layihələri həyata keçirilmişdir. 2004-2018-ci illərdə Prezident İlham Əliyev bölgənin 6 inzibati rayonuna 45-dən çox rəsmi səfərdə olmuşdur. Bu səfərlər bölgənin sosial-iqtisadi və mədəni cəhətdən inkişafında əsas rola malikdir. Dissertasiya işində bölgənin sosial-iqtisadi və mədəni inkişafının elmi əsasları öyrənilmiş, ilk dəfə olaraq tədqiqata cəlb edilmişdir. Qeyd etməliyik ki, müstəqillik illərindən respublikanın cənub-şərq bölgəsinin sosial-iqtisadi və mədəni inkişafı problemi indiyə kimi müstəqil tədqiqat obyekti olmamışdır. Bu da "Azərbaycan Respublikasının cənub-şərq bölgəsinin sosial-iqtisadi və mədəni inkişafı (2003-2018-ci illər)" adlı dissertasiya işinin yazılmasını zəruri edən əsas amillərdən biridir. 2003-2018-ci illər ərzində Azərbaycan Respublikasının cənub-şərq bölgəsi sosial-iqtisadi və mədəni cəhətdən inkişaf etdirilmişdir. Dövlət Proqramlarına uyğun bölgənin sənaye, aqrar sektoru, turizm, təhsil və mədəniyyət istiqamətində əsaslı iş görülmüşdür. Dövlət Proqramları çərçivəsində cənub-şərq bölgəsində infrastrukturun bərpası və inkişafı, əhalinin kommunal xidmətləri ilə təchizatının yaxşılaşdırılması, səhiyyə və təhsil müəssisələrinin tikintisi, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Bölgənin inkişafına geniş miqyaslı investisiya qoyuluşunun təmini qeyri-neft sektorunda iqtisadi artıma şərait yaratmışdır. Burada sənaye müəssisələrinin fəaliyyətinin bərpası ilə, yeni müəssisələr yaradılmışdır. Aqrar sektorda məhsulların emalı ilə bölgə sənayesi inkişaf

etmişdir. Azərbaycan tarix elmi qarşısında duran başlıca vəzifələrdən biri də regionların sosial-iqtisadi və mədəni inkişafının öyrənilməsini təmin etmək və bu sahədə elmi bazanın yaradılmasına nail olmaqdır.

Ölkədə aqrar sahənin vergilərdən azad edilməsi, güzəştli kreditlərin verilməsi nəticəsində kənd təsərrüfatı sürətlə inkişaf etmişdir. Sahibkarlığa İnkişaf Fondunun vəsaitləri hesabına 2018-ci ilə qədər ölkə üzrə həyata keçirilən layihələrin ümumi dəyəri 5 milyard manat olan 35.600-dən çox sahibkara 2.3 milyard manat güzəştli kredit verilmişdir ki, bu kreditlərin də 68 faizdən çoxu aqrar sahənin payına düşmüştür. Prezident İlham Əliyevin birbaşa nəzarəti ilə ölkənin hərtərəfli inkişafı istiqamətində mühüm nailiyyətlərə nail olunmuşdur. Həyata keçirilən uğurlu iqtisadi inkişafın öyrənilməsi və təhlili bu günün əsas tələblərindən biridir. Respublikanın cənub-şərq bölgəsində dövlətin həyata keçirtdiyi uğurlu sosial-iqtisadi və mədəni siyasət tədqiqat işində öyrənilməyə çalışılmışdır. Ümummilli lider Heydər Əliyevin ölkəyə birinci rəhbərliyi dövründə respublikanın cənub-şərq bölgəsi iqtisadi göstəricilərinə görə əsas yerlərdən birini tutmuşdur. Məhz onun tapşırığı ilə Lənkəran şəhərində inşa edilən Xanbulançay dəryaçası bölgədə kənd təsərrüfatının inkişafında əsaslı rol oynamışdır. Bölgənin aqrar sektorunda faraş tərəvəzçilik, çayçılıq, üzümçülük, taxılçılıq üstünlük təşkil edir. Ölkəmizdə hal-hazırda istehsal olunan çayın 99 faizi, tərəvəzin 27 faizi, taxılın 25 faizi, kartofun 24 faizi, üzümün 13 faizi, meyvənin 10 faizi bölgənin payına düşür. Masallı, Lənkəran, Astara rayonları çayçılıq və tərəvəz-bostan məhsullarının istehsalı üzrə ixtisaslaşmış, üzümçülük əsasən Cəlilabad rayonunda inkişaf etmişdir. Lerik və Yardımlı rayonlarında isə əsas sahələr taxılçılıq, heyvandarlıq və tütünçülük olmuşdur. Çayçılıq təsərrüfatı genişlənmiş, yeni təsərrüfat sahələri yaradılmışdır. Bölgə Prezident İlham Əliyevin əsas diqqət mərkəzində olmuş, inkişaf istiqamətləri düzgün müəyyənləşdirilmişdir.

Ölkə başçısının 2005-ci il 14 sentyabr tarixli "Azərbaycan Respublikası regionlarının, o cümlədən Lənkəran şəhəri, Astara, Lerik, Masallı və Yardımlı rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında", 2012-ci il 1 avqust tarixli

“Lənkəran şəhərinin sosial-iqtisadi inkişafın sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında”, 2013-cü il 11 sentyabr tarixli “Masallı rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında”, 14 sentyabr 2013-cü il tarixli “Lerik rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında”, 2015-ci il 13 aprel tarixli “Astara rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında” Sərəncamları bölgə üçün xüsusi əhəmiyyət kəsb edir. Belə ki, Sərəncamlara əsasən respublikanın cənub-şərq bölgəsində əsaslı işlər görülmüşdür.

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf tarixi haqqında kifayət qədər tədqiqat işi aparılmışdır. Lakin bu tədqiqat işlərində respublikanın cənub-şərq bölgəsinin materialları öz əksini tapmamışdır. Bunlar içərisində Ə.Qasımov tərəfindən yazılan “Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi: 1969-2003-cü illər” adlı monoqrafiyanı,[2] S.Abbasovun “Azərbaycan Respublikasının ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafında qadınların rolu (1970-2015-ci illər)”,[3] T.Sərdarovun “Azərbaycan Respublikası regionlarında sosial infrastrukturun təkmiləşdirilməsi istiqamətləri”,[4] G.Mahmudovanın “Azərbaycan Respublikasının dövlət ali təhsil sistemində humanitar sahələr üzrə kadr hazırlığı (1991-2005-ci illər)”,[5] G.Aslanlının “Azərbaycan Respublikasında bədən tərbiyəsi və idma-

[2]Qasımov Ə. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi: 1969-2003-cü illər / Ə.Qasımov. – Bakı: Turxan, – 2013, – 263 s.

[3]Abbasov S. Azərbaycan Respublikasının ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafında qadınların rolu (1970-2015-ci illər) / tarix üzrə elmlər doktoru dissertasiyasının avtoreferatı / – Bakı, 2018, – 50 s.

[4]Sərdarov T. Azərbaycan Respublikası regionlarında sosial infrastrukturun təkminləşdirilməsi istiqamətləri / iqtisad üzrə elmlər doktoru dissertasiyasının avtoreferatı / – Bakı, 2018, – 50 s.

[5]Mahmudova G. Azərbaycan Respublikasının dövlət ali təhsil sistemində humanitar sahələr üzrə kadr hazırlığı (1991-2005-ci illər) / tarix üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı / – Bakı, 2016, – 25 s.

nın inkişafında dövlət siyasəti (2003-2013-cü illər)”,[6] Y.Mahmudov “Azərbaycan Respublikasında ətraf mühitin qorunması tarixi (1991-2011-ci illər)”,[7] M.Orucovanın “Azərbaycanda sənaye müəssisələrinin ixrac potensialının artırılması yolları”,[8] N.Fataxovanın “Azərbaycan Respublikasının tikinti sənayesinin inkişafına innovasiya və elmi texnologiyaların təsiri”,[9] A.Axundovanın “Azərbaycan Respublikası turizmdə infrastrukturun inkişafının tənzimlənməsi”[10] kimi dissertasiyaları göstərmək olar. Bu tədqiqat işlərində ölkənin sosial-iqtisadi inkişaf məsələləri öyrənilməyə çalışılmışdır.

Azərbaycanın görkəmli tarixçisi akademik Y.Mahmudov “İlham Əliyev – Azərbaycan dövlətçiliyinin parlaq gələcəyi”,[11]“İlham Əliyev: Yeni Prezident, yeni lider”,[12] “Heydər Əliyev ideyalarının zəfər yürüşü” (Heydər Əliyev şəxsiyyəti, onun zəngin irsinin və ideyalarının davamçısı olan Prezident İlham Əliyevin uzaqgörən daxili və xarici siyasəti)”,[13] “İlham Əliyev və Azərbaycan tarix elmi”[14] adlı əsər-

---

[6]Aslanlı G. Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafında dövlət siyasəti (2003-2013-cü illər) / tarix üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı / – Bakı, 2018, – 26 s.

[7]Mahmudov Y. Azərbaycan Respublikasında ətraf mühitin qorunması tarixi (1991-2011-ci illər) / tarix üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı / – Bakı, 2017, – 26 s.

[8]Orucova M. Azərbaycanda sənaye müəssisələrinin ixrac potensialının artırılması yolları / iqtisad üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı. – Bakı, 2021, – 24 s.

[9]Fataxova N. Azərbaycan Respublikasının tikinti sənayesinin inkişafına innovasiya və elmi texnologiyaların təsiri / iqtisad üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı / – Bakı, 2018, – 27 s.

[10]Axundova A. Azərbaycan Respublikası turizmdə infrastrukturun inkişafın tənzimlənməsi / iqtisad üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı / – Bakı, 2018, – 27 s.

[11]Mahmudov Y. İlham Əliyev – Azərbaycan dövlətçiliyinin parlaq gələcəyi // – Bakı: Gülüstan, – 2003. № 2, – s. 3-4.

[12] Mahmudov Y. İlham Əliyev: Yeni Prezident, yeni lider // Siyasət zirvəsində. – Bakı: – 2004. – s. 331-345.

[13]Mahmudov Y. Heydər Əliyev ideyalarının zəfər yürüşü (Heydər Əliyev şəxsiyyəti, onun zəngin irsinin və ideyalarının davamçısı olan Prezident İlham Əliyevin uzaqgörən daxili və xarici siyasəti) / Y.Mahmudov. – Bakı: Təhsil, – 2011, – 547 s.

lərində ölkənin sosial-iqtisadi inkişaf məsələlərinə xüsusi yer verilmişdir. Əsərlərdə Prezident İlham Əliyevin sosial-iqtisadi və mədəni siyasəti hərtərəfli öyrənilmiş və ölkənin beynəlxalq aləmdə nüfuzunun möhkəmlənməsi göstərilmişdir.

Ümummilli lider Heydər Əliyev dövrünün mühüm tədqiqatçılarından biri İ.Hüseynova tərəfindən "Müstəqiliyimizin təminatçısı",[15] "Dövlətçilik naminə",[16] "Müstəqil Azərbaycan dövlətinin qurucusu"[17] adlı əsərlərdə bu dövr ətraflı şəkildə tədqiq olunmuşdur. Əsərlərdə ölkənin sosial-iqtisadi siyasəti düzgün qiymətləndirilmiş və kompleks şəkildə öyrənilmişdir.

Tədqiqat zamanı mövzu ilə bağlı ədəbiyyat, qəzet və arxiv materiallarından istifadə olunmuşdur. Bu materiallar müqayisəli şəkildə öyrənilərək tədqiqata cəlb olunmuşdur. AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun iki cilddə nəşr etdirdiyi "Azərbaycan Respublikasının tarixi"[18] adlı kitab mühüm əhəmiyyətə malikdir. Kitabın ikinci cildi dissertasiyaya uyğun dövrü əhatə edir. Respublikanın cənub-şərq bölgəsinə aid materiallar cuzi olsa da Azərbaycan Respublikası tarixinin öyrənilməsində əsas ədəbiyyat kimi göstərmək olar. Kitabda ölkədə həyata keçirilən sosial-iqtisadi islahatlar, xarici iqtisadi əlaqələr, əhalinin sosial rifahı, səhiyyə, idman, elm və təhsilin inkişafı haqqında ətraflı məlumatlar verilmişdir.

E.Məlikov tərəfindən yazılan "Müstəqillik dövründə Azərbaycan Respublikasının cənub-şərq bölgəsinin inkişaf etdirilməsi siyasəti.

---

[14]Mahmudov Y. İlham Əliyev və Azərbaycan tarix elmi / Y.Mahmudov. – Bakı: Turxan, – 2014, – 478 s.

[15]Hüseynova İ. Müstəqilliyimizin təminatçısı (Məqalələr, çıxışlar, müsahibələr, rəylər) / İ.Hüseynova. – Bakı: Təhsil, – 2003, – 504 s.

[16]Hüseynova İ. Dövlətçilik naminə / İ.Hüseynova. – Bakı: Bakı Universiteti nəşriyyatı, – 2001, – 294 s.

[17]Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu / İ.Hüseynova. – Bakı: Təhsil, – 2004, – 472 s.

[18]Azərbaycan Respublikasının tarixi (1991-2003). 2 cilddə. I cild, Heydər Əliyev dövrü. Azərbaycan Tarixçiləri İctimai Birliyi, – Bakı: – 2016, – 704 s.; Azərbaycan Respublikasının tarixi (2003-2016). 2 cilddə. II cild. İlham Əliyev dövrü. Azərbaycan Tarixçiləri İctimai Birliyi, – Bakı: – 2016, – 716 s.

İlham Əliyev dövrü”[19] adlı monoqrafiya mövzu ilə bağlı məsələlərin tədqiqinə həsr edilmişdir. Monoqrafiyada Ümummilli lider Heydər Əliyevin ölkəyə rəhbərliyi dövründə bölgənin sosial-iqtisadi və mədəni inkişafı araşdırılmış, bununla yanaşı bölgədə sahibkarlığın, səhiyyənin, idmanın və kommunal təsərrüfatın inkişafı öyrənilmişdir. Monoqrafiya ilk dəfə olaraq respublikanın cənub-şərq bölgəsində sənayenin, turizmin, rabitənin, nəqliyyat infrastrukturunun və kənd təsərrüfatının inkişaf istiqamətləri öyrənilmiş və statistik materiallardan cədvəllər tərtib edilərək illərə uyğun sosial-iqtisadi inkişaf rəqəmlərlə göstərilmişdir. Burada ölkə başçısı tərəfindən imzalanan sərəncamlar ayrıca verilmiş, bölgədə keçirilən dövlət tədbirləri haqqında materiallar göstərilmişdir. Monoqrafiyanı respublikanın cənub-şərq bölgəsinin tədqiqi və öyrənilməsində əsas mənbə kimi qeyd etmək lazımdır.

M.Talışlı, E.Əhədov tərəfindən tərtib edilən “Lənkəran: ensiklopedik məlumat”[20] adlı kitabda Ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyev cənub bölgəsinə göstərdikləri diqqət və qayğı haqqında məlumat verilir. Bununla yanaşı cənub bölgəsinin görkəmli şəxsiyyətləri, elmi və mədəni mühiti haqqında məlumat verilir. Lənkəran şəhərinin sosial-iqtisadi həyatının geniş oxucu kütləsinə çatdırılmasında əsas rola malikdir. Kitab ensiklopedik xarakter daşıyır, materiallar qısa və aydın şəkildə verilmişdir. Kitabın məhdud cəhəti ondan ibarətdir ki, sosial-iqtisadi və mədəni sahədə həyata keçirilən tədbirlər haqqında qısa məlumat verilir.

Ə.Həsənov tərəfindən tərtib olunan “Lənkəran Heydər Əliyev siyasətinin işığında”[21] adlı kitabda Ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyev bölgəyə səfərləri və burada keçirdikləri görüşlər haqqında məlumat verilir. Kitab qəzet materialları əsasında

---

[19]Məlikov E. Müstəqillik dövründə Azərbaycan Respublikasının cənub-şərq bölgəsinin inkişaf etdirilməsi siyasəti. Ilham Əliyev dövrü / E. Məlikov. – Bakı: Turxan NPB, – 2020, – 408 s.

[20]Talışlı M., Əhədov E. Lənkəran: Ensiklopedik məlumat / M.Talışlı, E.Əhədov. – Bakı: 3 №-li Bakı Mətbəəsi ASC, – 2017, – 584 s.

[21]Həsənov Ə. Lənkəran Heydər Əliyev siyasətinin işığında / Ə.Həsənov. – Bakı: Ozan nəşriyyatı, – 2004, – 192 s.

tərtib edilmiş, cənub bölgəsinin tarixini öyrənilməsində mühüm əhəmiyyətə malikdir. Kitaba daxil olan materiallar Prezidentin çıxışları və rayon ictimaiyyəti ilə keçirdiyi görüşlərdir. Müəllif tərəfindən bu materiallar toplanaraq kitab tərtib edilmişdir.

A.Mistanlı tərəfindən tərtib edilən "Cənub bölgəsinin abidələrinin ensiklopediyası"[22] adlı kitab mövzu ilə əlaqəsi olmasa da cənub bölgəsin tarixini öyrənilməsində xüsusi əhəmiyyət daşıyır. Burada bölgənin tarixi abidələri və onların yerləşdiyi inzibati rayonlar haqqında ətraflı məlumat verilir. Tarixi abidələrin dövrü və onlar haqqında qısa məlumat əks olunmuşdur. Kitab tarixi etnoqrafik səpgidə yazılsa da cənub-şərq bölgəsin mədəni mühitinin öyrənilməsində əhəmiyyət daşıyır.

İ.Rzayev tərəfindən yazılan "Azərbaycan Respublikasında regionların davamlı sosial-iqtisadi inkişafı: mövcud vəziyyət və gələcək perspektivləri" adlı kitab regionların sosial-iqtisadi məsələlərini öyrənir və iqtisadi sahədə regionlarda baş verən inkişaf tədqiq edilir. Perspektivliyi nəzərə alınaraq, iqtisadi rayonlar üzrə aparılmış dövlət siyasəti kitabda ətraflı verilmişdir. Kitab Prezident İlham Əliyevin uğurlu regional iqtisadi siyasətin elmi əsaslarını tədqiq edir və Lənkəran iqtisadi rayonu üzrə sosial-iqtisadi göstəricilər ətraflı verilir.

S.Talıbov, A.Quluzadə tərəfindən tərtib edilən "AMEA Lənkəran Regional Elmi Mərkəzi (2015-2020): uğurlu nəticələr, yeni hədəflər"[23] adlı kitabda Azərbaycanda elmin inkişafına dövlət qayğısı, elm siyasəti, bölgədə aparılan elmi tədqiqat işləri və əldə olunan nəticələri işıqlandırır. Kitab AMEA-nın Lənkəran Regional Elmi Mərkəzinin fəaliyyət istiqamətlərini müəyyən edir, bu istiqamətdə aparılan işlər haqqında geniş məlumat verir. Kitab respublikanın cənub-şərq bölgəsində elmin inkişafı, aparılan tədqiqat işlərinin miqyası baxımından əvəzsiz mənbədir. Kitabda Lənkəran Regional Elmi Mərkəzi

---

[22]Mistanlı A. Cənub bölgəsinin abidələrinin ensiklopediyası / A.Mistanlı. – Bakı: – 2018, – 438 s.

[23]Talıbov S. Quluzadə A. AMEA Lənkəran Regional Elmi Mərkəzi (2015-2020): uğurlu nəticələr, yeni hədəflər / S.Talıbov, A.Quluzadə. – Bakı: Ecoprint, – 2019, – 248 s.

və fundamental elmlə təhsilin qarşılıqlı əlaqəsinə xüsusi yer verilmişdir.

S.Məmmədov, Ə.Nurullayev, E.Əhədov tərəfindən tərtib olunan "Gəlmətürk salnaməsi"[24] adlı kitab bölgə tarixinin öyrənilməsində mühüm əhəmiyyətə malikdir. Kitabda müəlliflər tərəfindən Ümummilli lider Heydər Əliyevin cənub bölgəsinə göstərdiyi diqqət və qayğı işıqlandırılmışdır. Əsər cənub bölgəsinin tarixin öyrənilməsi və tədqiqində mühüm əhəmiyyət kəsb edir.

Ə.Kərimov, E.Məlikov, X.Muğammatoğlu tərəfindən tərtib olunan "Şağlaküçə"[25] adlı kitabda bölgənin sosial-iqtisadi inkişafı ayrıca yarım başlıqda verilmişdir. Prezident İlham Əliyevin bölgəyə səfərləri və Dövlət Proqramlarının uğurla icrası haqqında geniş məlumat verilmişdir. Burada kənd təsərrüfatı, sənaye, təhsil, səhiyyə üzrə məlumatlar verilmişdir. Kitab bununla yanaşı Şağlaküçə inzibati dairəsi üzrə ümumi vəziyyət, tarixi haqqında geniş məlumat verir.

Dissertasiyada "Azərbaycan", "Respublika", "Xalq" qəzetlərinin materiallarından istifadə olunmuşdur. Bölgənin sosial-iqtisadi inkişafını əks etdirən yerli mətbuat orqanları olan "Lənkəran", "Zirvə", "Astara", "Yeni həyat" qəzetlərinin materiallarından istifadə olunmuşdur.

T.Qaraşov tərəfindən yazılan "Cəlilabad: Dövlət Proqramı uğurla icra olunur"[26] adlı məqalədə rayonun sosial-iqtisadi durumu işıqlandırılır. Məqalədə rayonda həyata keçirilən regionların sosial-iqtisadi inkişafı I Dövlət Proqramına uyğun tədbirlər haqqında məlumat verilir. Rayonun iqtisadi potensialına uyğun həyata keçirilən tədbirlərin müsbət cəhətləri öyrənilir. Xüsusilə kənd təsərrüfatı üzrə statistik göstəricilər verilmişdir.

---

[24]Məmmədov S, Nurullayev Ə, Əhədov E. Gərmətürk salnaməsi / S.Məmmədov, Ə.Nurullayev, E.Əhədov. – Bakı: Ol MMC, – 2014, – 541 s.
[25]Kərimov Ə, Məlikov E, Muğamatoğlu X. Şağlaküçə / Ə.Kərimov, E.Məlikov, X.Muğamatoğlu. – Baki: Avropa nəşriyyatı, – 2015, – 314 s.
[26]Qaraşov T. Cəliləbadın sabahı daha işıqlı olacaqdır // Respublika. – 2004, 20 iyul. – s. 3.

Y.Abdulov tərəfindən yazılan “Yardımlı rayonunun sosial-iqtisadi inkişaf problemləri”[27] adlı məqaləsində rayonda kənd təsərrüfatının inkişafı və aqrar islahatların rayonda keçirilməsi haqqında məlumat verilir. Müəllif qeyd edir ki, Ümummilli lider Heydər Əliyevin dövründə Yardımlı rayonu sosial-iqtisadi cəhətdən inkişaf etmiş və bu inkişafı statistik rəqəmlərlə göstərir. Məqalə 2003-cü ilə qədər rayonun sosial-iqtisadi inkişaf problemlərini əhatə edir və mövcud ümumi vəziyyət haqqında məlumat verir. Müəllif tərəfindən elektrik enerjisi, yol nəqliyyatı, sahibkarlıq və xalçaçılıq istiqamətində mövcud çatışmamazlıqlar qeyd olunmuşdur. Məqalə 1970-2003-cü illər ərzində Yardımlı rayonunun sosial-iqtisadi inkişafı məsələlərinin öyrənilməsində mühüm əhəmiyyətə malikdir.

F.Hacıyev tərəfindən yazılan “Lerik rayonunun sosial-iqtisadi inkişafının əsas istiqamətləri”[28] adlı məqalədə rayonda yüngül sənaye məhsullarının istehsalının inkişaf etdirilməsi, ənənəvi istehsal sahələrinin yaradılması, heyvandarlıq sahəsinin inkişafı istiqamətində həyata keçiriləcək layihələrin müsbət nəticələri haqqında məlumat verilir. Müəllif tərəfindən qeyd edilir ki, rayonda konservləşdirmə sənayesini, ət yarımfabrikatları, dərman bitkilərinin tədarükü və emalı, qranit-mərmər sahəsində istehsal müəssisələrinin yaradılması iqtisadi cəhətdən rayonun inkişafına müsbət təsir göstərəcəkdir. Məqalədə 2003-cü ilə qədər Lerik rayonunun sosial-iqtisadi inkişafının əsas istiqamətləri öyrənilmişdir.

A.Abdullayev tərəfindən yazılan “Astara çayının şöhrəti geri qayıdır”[29] adlı məqalədə bölgənin kənd təsərrüfatının çayçılıq sahəsi öyrənilir. Müəllif tərəfindən əsaslandırılır ki, çayçılıq təsərrüfatı xüsusi dövlət qayğısı ilə əhatə olunmuşdur. Məqalədə sahibkarlara

---

[27]Abdulov Y. Yardımlı rayonunun sosial-iqtisadi inkişaf problemləri. Lənkəran regionunun iqtisadi inkişaf problemləri // Respublika simpoziumunun materialları, – Lənkəran, – 26-27 sentyabr 2003, – s. 22-28.

[28]Hacıyev F. Lerik rayonunun sosial-iqtisadi inkişafının əsas istiqamətləri. Lənkəran regionunun iqtisadi inkişaf problemləri // Respublika simpoziumunun materialları, – Lənkəran, – 26-27 sentyabr 2003, – s.17-22.

[29]Abdullayev A. Astara çayının şöhrəti geri qayıdır // Yaşıl çay jurnalı, – 2015. № 3 (15), – s. 65-69 .

verilən kredit hesabına çayçılıq təsərrüfatının ildən-ilə artımı qeyd edilir. Yeni çay növlərinin bölgəyə gətirilməsi müasir üslubda çay emalı zavodlarının açılması bu sahəyə diqqəti daha da artırır.

N.Axundova tərəfindən yazılan "Müasir dövrdə Azərbaycanın mədəniyyəti, ədəbiyyatı və incəsənətinin inkişafında bədii yaradıcı ziyalılarının rolu"[30] və "Heydər Əliyev və Azərbaycan Respublikasının inkişaf strategiyasında mədəniyyət məsələsi"[31] adlı məqalələrdə ölkə mədəniyyətinin inkişaf məsələləri öyrənilmişdir. Burada bölgəyə aid materiallar olmasa da Azərbaycan mədəniyyətinin öyrənilməsi istiqamətində mühüm əsərlərdir.

H.Məlikov tərəfindən yazılan "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı Lerikdə uğurla icra edilir"[32] adlı məqalə Lerik rayonunun sosial-iqtisadi inkişaf məsəlləri qeyd edilir. Burada I Dövlət Proqramına uyğun həyata keçirilən layihələr haqqında danışılır. Lerik ümumilikdə iqtisadi cəhətdən bölgənin digər rayonlarına nisbətən iqtisadi göstəricilərinə görə aşağı pillədə dururdu. Lakin Dövlət Proqramına uyğun həyata keçirilən sosial layihələr rayonun iqtisadi cəhətdən inkişafına şərait yaratmışdır. Məqalədə xüsusilə kənd təsərrüfatı və rayon üzrə həyata keçirilən tədbirlər işıqlandırılır.

Tədqiqat işinin hazırlanmasında Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin materiallarından geniş istifadə olunmuşdur. Bunlar içərisində "Regionların sosial-iqtisadi inkişafı"[33] adlı

---

[30]Axundova N. Müasir dövrdə Azərbaycanın mədəniyyəti, ədəbiyyatı və incəsənətinin inkişafında bədii yaradıçı ziyalılarının rolu // – Bkı: Tarix və onun problemləri jurnalı, – 2007. №2 – s. 248-252.

[31]Axundova N. Heydər Əliyev və Azərbaycan Respublikasının inkişaf strateqiyasında mədəniyyət məsələsi. – Bakı: Audit jurnalı, – 2012. №1, – s. 90-97.

[32]Məlikov H. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqrammı Lerikdə uğurla icra edilir // Lerik. – 2006, 15 fevral. – s. 3.

[33]Regionların sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Statistik məcmuə. – Bakı: – oktyabr 2007, – 591s.; Regionların sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Statistik məcmuə. – Bakı: – aprel 2007, – 515 s.; Regionların sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Statistik məcmuə. – Bakı: – yanvar 2007, – 525 s.;

statistik məcmuələrdir. Məcmuələr ildə dörd dəfə nəşr olunmaqla iqtisadi rayonlar üzrə həyata keçirilən Dövlət tədbirləri haqqında məlumat verilir. Məcmuələrdə əsasən regionların sosial iqtisadi inkişafı üzrə Dövlət Proqramına uyğun həyata keçirilən layihələrin ümumi vəziyyəti haqqında dəyərli məlumatlar toplanmışdır. Bu məlumatlar içərisinə təhsil, səhiyyə, nəqliyyat, tikinti, idman qurğularının tikintisi, sənaye daxildir. Məcmuələr regionlar üzrə sosial-iqtisadi sahədə həyata keçirilən tədbirlərin tədqiqində dəyərli mənbədir. Bununla yanaşı rayon statistika idarələri tərəfindən statistik məcmuələr nəşr olunmuşdur. Bunlar içərisinə Lənkəran, Masallı, Lerik, Cəlilabad, Astara və Yardımlı rayonu üzrə "Statistik göstəricilər"[34] daxildir. Hər il tərtib edilən statistik göstəricilərdə rayon üzrə sənaye, təhsil, mədəniyyət, nəqliyyat, turizm, kommunal təsərrüfat, demoqrafik vəziyyət haqqında məlumat verilir. Burada hər ilə uyğun statistik göstəricilər göstərilir ki, buda rayon üzrə iqtisadi inkişafı rəqəmlərlə ifadə edir. Bölgənin sosial-iqtisadi inkişafının tədqiqində bu məlumatları mühüm mənbə kimi qiymətləndirmək olar.

Beləliklə, tədqiqat işinə dair mövcud ədəbiyyatın qısa icmalı göstərir ki, dissertasiya üçün seçilmiş mövzu xüsusi tədqiqat predmeti olmamışdır. Respublikanın cənub-şərq bölgəsinin sosial-iqtisadi

---

Regionların sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Statistik məcmuə. – Bakı: – iyul 2008, – 633 s.; Regionların sosial-iqtisadi inkişafı (2009-2013-cü illər) Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Statistik məcmuə. – Bakı: – yanvar 2009, – 678 s.; Regionların sosial-iqtisadi inkişafı (2009-2013-cü illər) Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Statistik məcmuə. – Bakı: – iyul 2012, – 533s.; Regionların sosial-iqtisadi inkişafı (2009-2013-cü illər) Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Statistik məcmuə. – Bakı: – yanvar 2013, – 588s.; Regionların sosial-iqtisadi inkişafı (2014-2018-ci illər) Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Statistik məcmuə. – Bakı: – yanvar 2014, – 509 s.

[34]Astara rayonunun statistik göstəriciləri. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. – Astara-2007, – 38s.; Cəlilabad rayonunun statistik göstəriciləri (2012-2017). Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Cəlilabad – 2018, – 108 s.; Lerik rayonunun statistik göstəriciləri (2003-2008). Azərbaycan Respublikasının Dövlət Statistikası Komitəsi. – Lerik-2009, – 72 s.; Yardımlı rayonunun statistik göstəriciləri (2012-2016-cı illər).Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. – Yardımlı – 2017, – 75 s.

və mədəni sahələrdə inkişafı ilə bagli bir sıra əsərlərdə cuzi məlumat verilmişdir. Bu materialların təhlili bizə əsas verir ki, mövcud ədəbiyyat bölgənin sosial-iqtisadi və mədəni inkişafını tam əhatə etmir. Ümumilikdə qeyd etmək lazımdır ki, problemin kompleks şəkildə araşdırılması tədqiqat predmeti olmamışdır.

Dissertasiyanın tədqiqi zamanı mövzu ilə bağlı çox saylı arxiv sənədlərindən geniş şəkildə istifadə olunmuşdur.[35] Məhz istifadə

[35]Lənkəran Şəhər İcra Hakimiyyəti Başçısının yanında şura iclasının protokolları (2004-2015-ci illər) //Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Lənkəran filialı, fond № 278, siyahı №1, vərəq–1-130; Lənkəran İdman və Turizm İdarəsinin sənədləri (2004-2015-ci illər) // Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Lənkəran filialı, fond №315, siyahı №1, vərəq–1-90; Lerik rayon icra hakiminin 2015-ci il üçün illik hesabatı // Lerik rayon İcra Hakimiyyətinin cari arxivi, vərəq-1-11; Lerik rayon icra hakiminin 2016-cı il üçün illik hesabatı // Lerik rayon İcra Hakimiyyətinin cari arxivi, vərəq–1-10; Lerik rayon icra hakiminin 2017-ci il üçün illik hesabatı // Lerik rayon İcra Hakimiyyətinin cari arxivi, vərəq–1-9; Lənkəran rayon icra hakiminin 2007-ci il üçün illik hesabatı // Lənkəran rayon İcra Hakimiyyətinin cari arxivi, vərəq–1-9; Astara Şəhər İcra Hakimiyyəti Başçısı yanında şura iclasının protokolları (2004-2015-ci illər) // Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Astara filialı, fond №102, siyahı №1, vərəq-31-78; Astara rayon icra hakiminin 2006-cı il üçün illik hesabatı // Astara rayon İcra Hakimiyyətinin cari arxivi, vərəq–13; Astara rayon icra hakiminin 2013-cü il üçün illik hesabatı // Astara rayon İcra Hakimiyyətinin cari arxivi, vərəq–11; Cəlilabad rayon icra hakiminin 2006-cı il üçün illik hesabatı // Cəlilabad rayon İcra Hakimiyyətinin cari arxivi, vərəq–9; Cəlilabad rayon icra hakiminin 2007-ci il üçün illik hesabatı // Cəlilabad rayon İcra Hakimiyyətinin cari arxivi, vərəq-10; Cəlilabad rayon icra hakiminin 2008-ci il üçün illik hesabatı//Cəlilabad rayon İcra Hakimiyyətinin cari arxivi,vərəq–9; Cəlilabad rayon icra hakiminin 2009-cu il üçün illik hesabatı // Cəlilabad rayon İcra Hakimiyyətinin cari arxivi, vərəq–11; Yardımlı Şəhər İcra Hakimiyyəti Başçısı yanında şura iclasının protokolları (2004-2015-ci illər) // Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Yardımlı filialı, fond №41, siyahı №1, vərəq – 47-93; Yardımlı rayon Mərkəzi Xəstəxanasının 2017-ci il üçün hesabatı // Yardımlı rayon İcra Hakimiyyətinin cari arxivi, vərəq – 1; Masallı Şəhər İcra Hakimiyyətinin Başçısının yanında şura iclasının protokolları (2004-2015-ci illər) // Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Masallı filialı, fond №18, siyahı №1, vərəq – 25-71; Masallı rayon icra hakiminin 2015-ci il üçün illik hesabatı // Masallı rayon İcra Hakimiyyətinin cari arxivi, vərəq–1-10; AMEA Lənkəran Regional Elmi Mərkəzinin 2017-ci ildəki elmi və elmi-təşkilat fəaliyyətinin yekunları haqqında hesabatı // AMEA Lənkəran Regional Elmi Mərkəzinin cari arxivi, vərəq–12; Masallı rayon icra hakiminin 2012-ci il üçün illik hesabatı // Masallı

olunmuş mənbələrin materiallarının verdiyi məlumatların müqayisəli təhlili göstərir ki, Azərbaycan Respublikasının cənub-şərq bölgəsinin sosial-iqtisadi və mədəni inkişafı istiqamətində tədqiqat işi qarşıya qoyduğu məqsədi tam olaraq yerinə yetirsin.

Azərbaycan Respublikasının inzibati rayonları olan Lənkəran, Masallı, Lerik, Yardımlı, Astara, Cəlilabad rayon icra hakimiyyətlərinin cari arxivlərində 2003-2018-ci illəri əhatə edən xeyli sayda materiallar mövcuddur. Tədqiqat zamanı burada rayon icra hakimiyyətlərinin illik hesabatlarından, dövlət idarələri tərəfindən verilən arayış və məlumatlardan geniş istifadə olunmuşdur. Lənkəran Dövlət Universitetinin, AMEA-nın Lənkəran Regional Elmi Mərkəzinin, Meyvəçilik və Çayçılıq Elmi Tədqiqat İnstitutunun Lənkəran Çay filialının, Azərbaycan Tərəvəzçilik Elmi Tədqiqat İnstitutunun Lənkəran Bölgə Təcrübə Stansiyasının cari arxivlərindən də istifadə olunmuşdur. Bu sənədlərdə bölgənin sosial-iqtisadi və mədəni sahədə həyata keçirilən tədbirləri öz əksini tapır. Bununla yanaşı, Azərbaycan Respublikasının Milli Arxiv İdarəsinin Lənkəran, Masallı, Lerik, Yardımlı, Astara, Cəlilabad filiallarının materiallarından da istifadə olunmuşdur. Milli Arxiv İdarəsinin Lənkəran filialının 278 və 315 saylı fondları, Masallı filialının 18 saylı fondu, Lerik filialının 2 və 4 saylı fondu, Yardımlı filialının 21 saylı fondu, Astara filialının 102 saylı fondu, Cəlilabad filialının 69 saylı fondu bölgənin sosial-iqtisadi və mədəni həyatının tədqiqində çoxlu sayda sənədlər mövcuddur. Bunlar içərisində rayon icra hakimiyyəti başçısının yanında şura iclaslarının protokolları və rayon icra hakimiyyətinin sərəncamları üstünlük təşkil edir. Bu sənədlərdə rayonlarda həyata keçirilən sosial-iqtisadi və mədəni sahədə tədbirlər öz əksini tapır. Tərtib olunan statistik cədvəllərdə bölgənin sənayesi, kənd təsərrüfatı, təhsili, nəqliyyatı, turizmi, sosial rifahı əksini tapmışdır. Bununla yanaşı Milli Arxiv İdarəsinin Lənkəran filialının 47, 199, 212, 221, 243, 264 saylı fondlarında, Masallı filialının 169, 193, 188, 179 saylı fond-

---

rayon İcra Hakimiyyətinin cari arxivi,vərəq–1-9; Masallı rayon icra hakiminin 2014-cü il üçün illik hesabatı // Masallı rayon İcra Hakimiyyətinin cari arxivi, vərəq–1-9; Masallı Mənzil Kommunal İstehsalat Birliyinin 2012-ci il üçün gördüyü işlər barədə arayışı // Masallı rayon İcra Hakimiyyətinin cari arxivi, vərəq – 1.

larında, Lerik filialının 5, 7, 9, 49 saylı fondlarında, Astara filialının 136, 141, 145, 147 saylı fondlarında, Yardımlı filialının 54, 55, 56, 57, 58 saylı fondlarında, Cəlilabad filialının 49, 52, 55, 60 saylı fondlarında rayonların inzibati yaşayış məntəqələrinə uyğun sənədlər saxlanılır. Bu sənədlər içərisində arayışlar, hesabatlar, paybəlli torpaqlar haqqında məlumatlar üstünlük təşkil edir.

Xronoloji baxımdan 2003-2018-ci illəri əhatə edən dissertasiya işi Azərbaycan Respublikasının cənub-şərq bölgəsinin sosial-iqtisadi və mədəni inkişafını tədqiq edir. 2004-2018-ci illər ərzində həyata keçirilən regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun respublikanın cənub-şərq bölgəsində həyata keçirilən tədbirləri araşdıraraq, müsbət nəticələr öyrənilir.

**Tədqiqatın obyekti və predmeti.** Azərbaycan Respublikasının cənub-şərq bölgəsinin sosial-iqtisadi və mədəni inkişafı seçilmiş tədqiqat mövzusunun obyektini təşkil edir. Tədqiqatın predmetini respublikanın cənub-şərq bölgəsində həyata keçirilən uğurlu dövlət siyasəti ilə bölgədə inkişaf edən səhiyyənin, idmanın, kommunal təsərrüfatın, təhsilin, sənayenin, turizmin, yol və nəqliyyat sisteminin, kənd təsərrüfatının ənənəvi sahələrinin araşdırılması təşkil edir. Prezident İlham Əliyevin birbaşa göstərişi ilə bölgədə yaradılan sənaye müəssisələri və özəl sektorun inkişafı əhalinin sosial rifahının yaxşılaşmasına ölkə üzrə ÜDM-un artımına şərait yaratmış, sosial infrastruktur formalaşdırılmışdır. Dissertasiya işinin obyekti və predmetinin düzgün seçimi tədqiqatın aparılması prosesini xeyli asanlaşdırmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi mövzu ilə bağlı arxiv sənədləri, tarixi ədəbiyyat, statistik material və digər mənbə məlumatları əsasında Azərbaycan Respublikasının cənub-şərq bölgəsində sosial-iqtisadi və mədəni inkişafı, bəhs olunan dövrdə bölgənin kənd təsərrüfatının mühüm ayrı-ayrı sahələrini ətraflı, əhatəli şəkildə araşdırmaqdan ibarətdir. Bu məqsədə çatmaq üçün tədqiqat işində aşağıdakı konkret vəzifələr qarşıya qoyulmuş və onların həllinə cəhd göstərilmişdir:

- Respublikanın cənub-şərq bölgəsinin sosial-iqtisadi və mədəni inkişafının düzgün təhlilini aparmaq, ümummilli lider Heydər Əliyev dövründə bölgənin sosial-iqtisadı və mədəni inkişafını göstərmək;

- Bölgədə Dövlət Proqramlarının icrasının müsbət nəticələrini, sosial-iqtisadi və mədəni inkişaf tarixini müəyyənləşdirmək;

- Bölgənin səhiyyə sisteminin yenidən qurulmasını, bu sahədə görülən işləri göstərmək;

- Bölgənin tikinti, kommunal təsərrüfatı, içməli su, elektrik və mavi qaz sahələrinin yenidən qurulmasını göstərmək;

- Bölgə sənayesinin ümumi vəziyyəti və inkişafı xüsusiyyətlərini müəyyən etmək, bölgənin turizm potensialı, bu işdə görülən tədbirlərin araşdırılmasını təmin etmək;

- Bölgənin rabitə sisteminin modernləşdirilməsi və informasiya, kommunikasiya-texnologiyaların inkişafını göstərmək;

- Bölgənin yol və nəqliyyat sisteminin yenidən qurulmasını, infrastruktur layihələrinin keçirilməsi tarixini müəyyənləşdirmək;

- Bölgədə təhsilin, elmin və mədəniyyətin inkişafının xüsusiyyətlərini müəyyən etmək;

- Bölgənin sosial-iqtisadi və mədəni inkişaf xüsusiyyətlərini analiz etmək;

- Bölgənin ayrı-ayrı təsərrüfat sahələrini çayçılıq, sitrus meyvəçiliyi və bostançılıq, heyvandarlığın inkişaf dinamikasını hərtərəfli təhlil etmək;

- Bölgənin müasir durumunun ümumi sosial-iqtisadi və mədəni xarakteristikasını vermək.

**Tədqiqat metodları.** Dissertasiyanın tədqiqi zamanı seçilmiş tarixi müqayisəli təhlil metodu və tarixə obyektiv yanaşma üsulu qarşıya qoyulan məqsədə nail olmaq üçün əsas kimi götürülmüşdür. Tədqiqat metodlarından istifadə edilərək həyata keçirilən tədbirlərə düzgün qiymət verilmiş, obyektivlik qorunmuş və hadisələr ardıcıllıqla öyrənilməyə çalışılmışdır. Dissertasiyada Azərbaycan Respublikasının cənub-şərq bölgəsinin sosial-iqtisadi və mədəni inkişafı xüsusiyyətləri müəyyən edilməsi tədqiqat işinin əsas özəyini təşkil etmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Ölkədə həyata keçirilən iqtisadi islahatlar respublikanın cənub-şərq bölgəsində də özünü göstərmişdir. Bölgə sənayesində əsaslı artım müşahidə olunmuşdur. 2004-2018-ci illəri əhatə edən regionlarin sosial-iqtisadi inkişafı Dövlət Proqramlarına uyğun olaraq burada sosial-iqtisadi inkişafa nail olunmuş və infrastruktur bərpa olunmuşdur.

- Bölgə sənayesi yenidən qurulmuş, bu istiqamətdə iş aparılaraq Lənkəran, Cəlilabad, Astara və Masallı rayonları ərazisində yeni zavodlar yaradılmışdır. Yeni yaradılan müəssisələr hesabına xeyli iş yerləri açılmışdır. Dövlət hesabına ayrılan kreditlər hesabına sahibkarlıq formalaşdırılmışdır. Dövlət Proqramlarının icrası bu işin gedişini xeyli asanlaşdırmışdır.

- Həyata keçirilən tədbirlər respublanın cənub-şərq bölgəsində sənaye sektorunun inkişafına, yeni sənaye müəssisələrinin açılmasına, istehsalın həcminin artmasına gətirib çıxarır. Bölgənin sənayesində kənd təsərüfatı ilə nisbətdə ilbəil artım müşahidə olundu.

- Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycan Respublikasının cənub-şərq bölgəsində inkişafa şərait yaratdı, əhalinin sosial rifahının yaxşılaşdırılmasını təmin etdi.

- Bölgənin kommunal təsərrüfatları yenidən quruldu, əhalinin mənzil şəraiti yaxşılaşdırıldı. Yeni elektrik stansiyaları, su ötürücü qurğular, qaz-kompressor stansiyaları istifadəyə verildi.

- Bölgənin tikinti quruculuq işləri genişləndi, şəhərlərin abadlaşdırılması prosesi sürətləndi. Dövlət vəsaiti hesabına inzibati və yaşayış binaları inşa edildi. Tikinti sənayesinə daxil olan tikinti materiallarının istehsalı genişləndirildi.

- Turizmin inkişafı məqsədilə görülmüş tədbirlər respublikanın cənub-şərq bölgəsində mühüm turizm mərkəzləri yaradıldı. Turizmin inkişafı da öz növbəsində bölgə iqtisadiyyatının artımına, əhalinin işlə təmin olunmasına müsbət təsir göstərdi.

- Müasir standartlara uyğun təhsil infrastrukturu yaradıldı. Bölgədə elmi mərkəz və ali təhsilin inkişafı təmin edildi. Lənkəran Döv-

lət Universitetinin təhsil səviyyəsi və tələbə sayı xeyli artdı. Bölgədə elmin inkişafı və təbliği istiqaməti müəyyənləşdirildi.

- Bölgənin milli informasiya və kommunikasiya infrastrukturu müasir texnologiyalar əsasında quruldu, yeni layihələr reallaşmış, internet xidmətinin keyfiyyəti artmışdır. Bölgə əhalisinin beynəlxalq şəbəkəyə çıxışında xeyli işlər görülmüşdür.

- Bölgənin yol-nəqliyyat sisteminin yenidən qurulması işi təmin edilmiş, Ələt-Astara beynəlxalq avtomobil yolunun tikintisi başa çatdırılmış, yük daşıma xeyli artmış, beynəlxalq standartlara uyğun aeroport istifadəyə verilmiş, şəhər, qəsəbə, kənd yollarının tikinti təmiri təşkil edilmişdir.

- Kənd təsərrüfatına göstərilən dövlət qayğısı nəticəsində bölgənin çayçılıq təsərrüfatı bərpasında işlər görülmüş, bu məqsədlə dövlət proqramı qəbul edilmişdir. Yeni cins heyvanların ailə təsərrüfatlarına verilməsi işi təşkil edilmişdir. Taxılçılıq, üzümçülük və sitrus meyvəçiliyinin genişləndirilməsi işi təşkil olunmuşdur.

- Bölgənin mədəni sahədə inkişafı ilə milli xüsusiyyətlər qorunmuş, mədəni kütləvi tədbirlərin çərçivəsi xeyli genişləndirilmiş, bu sahədə infrastruktur formalaşdırılmışdır. Tarixi abidələrinin təmiri və restavrasiyası həyata keçirilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya 2003-2018-ci illər ərzində Azərbaycan Respublikasının cənub-şərq bölgəsinin sosial-iqtisadi və mədəni inkişafı məsələlərini öyrənən ilk tədqiqat işidir. Tədqiqat zamanı əldə olunmuş arxiv sənədləri, mövzuya dair ədəbiyyat, dövri mətbuat və müxtəlif mənbə materiallarının təhlili aşağıda sadalananları da dissertasiyanın elmi yeniliyi hesab etməyə əsas verir.

- İlk dəfə olaraq respublikanın cənub-şərq bölgəsinin sosial-iqtisadi və mədəni inkişafı tədqiqat işində öyrənilmiş, inkişaf xüsusiyyətləri müəyyənləşdirilmiş və onların sistemləşdirilməsi həyata keçirilmişdir;

- Dissertasiya işinin yazılması zamanı istifadə olunmuş arxiv sənədlərinin və ilkin qaynaqlardan götürülmüş statistik rəqəmlərin böyük hissəsi ilk dəfədir ki, elmi dövriyyəyə daxil edilmişdir;

- Respublikanın cənub-şərq bölgəsinin sənayesi, sosial və mədəni sahədə, eləcə də kənd təsərrüfatında yaşanan tərəqqi arxiv qaynaqları,

statistik sənədlər və dövrü mətbuatın materialları əsasında araşdırılmış, inkişafın məhz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasətin nəticəsi kimi qeyd edilmişdir;

- Bölgənin sosial-iqtisadi və mədəni inkişaf tarixi müəyyənləşdirilmiş, göstərilən dövrü əhatə edən sənədlərin sistemləşdirilməsi həyata keçrilmişdir;

- Bölgədə səhiyyə infrastrukturunun yaradılması işində mühüm addımlar atılmışdır, şəhər xəstəxanaları, poliklinika, dioqnostika mərkəzləri yaradılmışdır. Əhaliyə xidmət sahələrinin keyfiyyəti xeyli yüksəlmişdir;

- İdman qurğularının inşası və yeni yaradılan idman mərkəzləri bölgə idmançılarının beynəlxalq yarışlarda iştirakına şərait yaratmışdır. Bölgə idmançıları beynəlxalq yarışlarda ölkəmizi layiqli təmsil edərək uğurlar qazanmışlar;

- Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarına (2004-2018-ci illər) uyğun bölgənin kommunal təsərrüfat sahələrinin yenidən qurulması işi həyata keçirilmişdir. Dövlət Proqramına daxil edilən elektrik, içməli su və mavi qaz təsərrüfatlarının bərpası işində əsaslı iş görülmüş, sosial problemlərin həllinə baza və imkan yaranmışdır;

- Bölgədə 250-dən çox məktəbin tikintisi həyata keçirilmiş və ya əsaslı təmir edilmişdir. Təhsil infrastrukturu göstərilən dövrdə xeyli yaxşılaşdırılmış, təhsilin keyfiyyəti artmışdır. Elmi mərkəzlər yaradılmışdır. Ali təhsil modernləşdirilmiş, elmi mühit formalaşdırılmışdır. Modul tipli məktəblərin tikintisi işi həyata keçirilmiş, ali təhsil müəssisələrinə qəbulda bölgənin payı xeyli artmışdır;

- Turizm mərkəzləri yaradılmış, xidmət sahələrinin sayı və xidmətin keyfiyyəti artmışdır. Statistik rəqəmlər göstərir ki, bölgəyə turist axınında xeyli artım müşahidə olunmuşdur. Tarixi-mədəni abidələrin bərpası işi təşkil edilmişdir. Nəticədə mədəni mühitin formalaşdırılmasına zəmin yaranmışdır;

- Bölgənin rabitə sistemi tam elektronlaşdırılmış, beynəlxalq şəbəkəyə qoşulması təmin edilmişdir. Bölgənin dağ kəndləri sürətli

internet xətti ilə təmin edilmiş, əhaliyə göstərilən elektron xidmətlərin əhatə dairəsi genişləndirilmişdir;

- Bölgədə böyük fermer təsərrüfatları yaradılmış, bu sahəyə xeyli dövlət vəsaiti yatırılmışdır. Bölgənin çayçılıq, taxılçılıq, üzümçülük, heyvandarlıq, sitrus meyvəçiliyi və tərəvəzçilik sahələri yenidən qurulmuşdur. Əkin sahələrindən səmərəli istifadə, kənd təsərrüfatı məhsullarının dünya standartlarına uygunlaşdırılması istiqamətində beynəlxalq təcrübənin öyrənilməsi davam etdirilir.

- Respublikanın cənub-şərq bölgəsinin ayrı-ayrı sosial-iqtisadi və mədəni sahələrində baş verən müsbət dəyişikliklər ilk dəfə xronoloji ardıcıllıqla öyrənilmiş, baş verən dəyişikliklərin dinamikasının elmi izahı verilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyada ilk dəfə olaraq respublikanın cənub-şərq bölgəsinin sosial-iqtisadi inkişaf tarixinin arxiv və mövcud mənbə əsasında kompleks şəkildə işlənərək sistemləşdirilməsi həyata keçirilmişdir. Bölgənin sosial-iqtisadi inkişafının elmi nəzəri hissəsi müəyyənləşdirilmışdır. Dissertasiyanın faktiki materiallarından və əldə olunmuş elmi nəticələrdən Azərbaycanın sosial-iqtisadi inkişaf tarixinə dair ümumiləşdirici əsərlərin, Vətən tarixi üzrə dərsliklərin hazırlanmasında, eləcə də respublikamızın sosial-iqtisadi, mədəni inkişaf konsepsiyasının müəyyən olunmasında istifadə oluna bilər. Bölgədə həyata keçirilən regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının müsbət nəticələrinin öyrənilməsi tədqiqat işinin mühüm əhəmiyyətini özündə əks etdirir.

Tədqiqatın elmi nəticələrindən ölkəmizin ali məktəblərinin tarix və iqtisadiyyat fakültələrində mühazirə və xüsusi kursların oxunması məqsədilə də istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas müddəa və nəticələri 1 monoqrafiya, Azərbaycanda və xaricdə çap olunan məqalələr və tezislərdə öz əksini tapmışdır. Tədqiqatın nəticələri haqqında ölkədə, xaricdə keçirilən respublika və beynəlxalq səviyyəli elmi-praktiki konfranslarda məruzələr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya işi AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan Respublikasının tarixi" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın quruluşu:** Dissertasiya işi Giriş (33.489 işarə), 19 paraqrafı ehtiva edən dörd fəsil (I fəsil – 132.503 işarə, II fəsil – 111.652 işarə, III fəsil – 95.895 işarə, IV fəsil – 130.030 işarə), nəticə – 24.365 işarə və istifadə edilmiş ədəbiyyat siyahısından (49.962 işarə) ibarətdir. Dissertasiya işinin ümumi həcmi 312 səhifədir, ədəbiyyat siyahısı və cədvəllər istisna olmaqla 527.934 işarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın xronoloji çərçivəsi, öyrənilmə səviyyəsi və mənbə bazası açıqlanır, tədqiqatın məqsəd və vəzifələri müəyyən olunur, elmi yeniliyi əsaslandırılır, nəzəri-metodoloji əsasları, praktiki əhəmiyyəti göstərilir, həmçinin dissertasiyanın aprobasiyası və quruluşu haqqında məlumat verilir.

**"Azərbaycan Respublikasının cənub-şərq bölgəsində infrastrukturun qurulması və Dövlət Proqramlarının həyata keçirilməsi"** adlanan birinci fəsil dörd paraqrafdan ibarətdir. Birinci paraqraf **"Ümummilli lider Heydər Əliyevin dövründə bölgənin sosial-iqtisadi və mədəni inkişafı (1969-2003)"** adlanır. 1969-cu ilin avqustunda Azərbaycan KP MK plenumunda Heydər Əliyev tərəfindən irəli sürülən təkliflər respublikada sağlam və işgüzar şəraitin yaradılması ilə nəticələnmiş, kənd təsərrüfatı və sənaye sahələrində inkişafının başlanğıcını qoymuşdur. Xüsusilə respublikanın cənub bölgəsində tərəvəzçilik, çayçılıq, heyvandarlıq, üzümçülük bu dövrdən başlayaraq inkişaf dövrünə qədəm qoymuşdur. İlk növbədə kənd təsərrüfatında mövcud olmuş nöqsanlar aradan qaldırılmış, iqtisadi geriliyə son qoyulmuşdur. Burada bölgənin sosial-iqtisadi inkişaf xüsusiyyətləri öyrənilmiş və ilk dəfə olaraq tədqiqata cəlb edilmişdir. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan SSR Nazirlər Soveti 1972-ci il 20 aprel tarixli "Respublikada çayçılığın inkişaf etdirilməsi haqqında" qərar qəbul etmişdir. Qərara əsasən Masallı rayonunda 100 hektar sahədə yeni çay plantasiyaları salınmış, 60 hektar sahədə seyrəklik ləğv edilmişdir. 1973-cü ildə rayonun çay sovxozları dövlətə 6,670 ton əvəzinə 7,044 ton yaşıl çay satmış, "M.F.Axundov adına", "Telman" adına, "Kommunizm yolu" adına sovxozlarda məhsuldarlıq yüksək olmuşdur. "Telman" adına və "Kommunizm yolu" sovxozlarının çayından daha yüksək nəticələr əldə edərək, üç il ərzində dövlətə plandan əlavə müvafiq surətdə

113,7 ton və 129,8 ton artıq məhsul satmışdır.[36] Belə ki, 1974-cü ildə Lənkəran rayonunun çayçılıq savxozları dövlətə 7 min ton məhsul təhvil vermiş, hər hektardan məhsuldarlıq 22,7 sentner olmuşdur ki, bu da 1970-ci illə nisbətdə 6,7 sentner çoxdur. Bu dövrdə bölgənin sənaye və kənd təsərrüfatı sahələri texnika ilə təmin edilmiş və yeni suvarma şəbəkələri yaradılmışdır.

Tədqiqat zamanı aydın olmuşdur ki, göstərilən dövrdə bölgənin sosial-iqtisadi inkişafı üçün lazımı tədbirlər görülmüşdür. Bu səbəblə də bölgədə irriqasiya qurğularının, su dəryaçalarının tikilməsinə başlandı. 1976-cı ildə Lənkəranda Xanbulançay dəryaçası istifadəyə verildi və bundan sonra istər faraş tərəvəz, istərsə də yaşıl çay istehsalında yüksək nəticələr əldə olundu. Bu qurğuların işə salınması respublikada kənd təsərrüfatı istehsalının intensivləşdirməyə, 120 min hektardan artıq sahədə torpağı su ilə təmin etməyə, pambıq, üzüm, tərəvəz, çay və digər kənd təsərrüfatı bitkilərinin istehsalının artırmağa imkan verdi.[37]

Masallı rayonundakı “Kommunizm yolu”, “M.Əzizbəyov adına”, “Füzuli” adına, Astara rayonundakı “Lenin” adına, Lənkəran rayonundakı “Komsomolun 50 illiyi”, “Kommunizm” sovxozları və bir sıra başqa təsərrüfatlar bu sahədə zəngin təcrübə qazanmışdılar. Astara rayonundakı “Lenin” adına subtropik sovxoz respublikada ən aşağı məsrəflə çay becərən sovxoz olmuşdur. Bu sovxozda istehsalın rentabelliyi 1981-ci ildə 118 faiz təşkil etmişdi. Bunun başlıca səbəbi texnikanın, suvarmanın tətbiq edilməsi və becərmənin yaxşı aparılmasından ibarət olmuşdu. XX əsrin 90-cı illərində mövcud siyasi vəziyyət ölkənin sosial-iqtisadi sahədə tənəzzülünə şərait yaratmışdır. Heydər Əliyevin ikinci dəfə ölkəyə rəhbərliyi dövründə sosial-iqtisadi böhranın qarşısı alınmış, bu sahədə islahatlar keçirilmiş və bölgənin yeni inkişaf konsepsiyası müəyyənləşdirilmişdir.

**“Dövlət Proqramlarının (2003-2018-ci illər) icrası ilə bölgənin inkişafı və sosial rifahın yaxşılaşdırılması”** adlı ikinci para-

---

[36]Masallı rayon partiya komitəsinin birinci katibi Z.M.Ömərov yoldaşın məruzəsi // Çağırış. – 1974, 15 yanvar. – s. 2.

[37]Həsənov Ə. Lənkəran Heydər Əliyev siyasətinin işığında / Ə.Həsənov. – Bakı: Ozan nəşriyyatı, – 2004, – 192 s.

qrafda bölgədə Dövlət Proqramlarının həyata keçirilməsi və onların müsbət nəticələri tədqiqata cəlb edilmişdir. Yoxsulluğa qarşı mübarizə məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 20 fevral tarixli Fərman ilə təsdiq edilmiş "2003-2005-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf Dövlət Proqramı" qəbul edilmişdir.

Ölkədə həyata keçirilən islahatlar və məşğulluq sahəsindəki tədbirlər Beynəlxalq Əmək Təşkilatının Baş Katibi X.Somavrya tərəfindən yüksək qiymətləndirilmiş və Azərbaycan gənclərinin məşğulluğu üzrə 10 lider ölkə sırasına daxil edilmişdir. "Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramları (2004-2018-ci illər)" bölgənin inkişafı, sosial rifahın yaxşılaşdırılması və yeni iş yerlərinin açılmasına şərait yaratmışdır. Bu sahədə respublikanın cənub-şərq bölgəsində uğurlu iş aparılmış, Dövlət Proqramlarının tətbiqi istiqamətində mühüm nəticələr əldə edilmişdir. Prezident İlham Əliyev cənub bölgəsinə səfəri çərçivəsində çıxışında demişdir: *"Mən bu gün Astarada, Lənkəranda, Masallıda və Cəlilabadda olarkən çox sevinc hissi keçirirəm. Sevinirəm ki, Azərbaycan inkişaf edir, yeni iş yerləri açılır, yeni müəssisələr fəaliyyət göstərir. Ölkəmizdə istehsal olunmuş mallar digər ölkələrə ixrac olunur. Biz də bunu istəyirik".*[38]

Respublikanın cənub-şərq bölgəsində yaradılmış yeni müəssisələr də əhəmiyyətli dərəcədə artmışdır. Belə ki, bölgədə 2004-cü ildə 200, 2005-ci ildə 204, 2006-cı ildə 198, 2007-ci ildə 265, 2008-ci ildə isə 215, ümumilikdə isə 1082 yeni yaradılmış müəssisə fəaliyyətə başlamışdır. Bu müəssisələrin yaradılmasında Sahibkarlığa Kömək Milli Fondunun dəstəyi əhəmiyyətli dərəcədə çoxdur. 2007-ci ildə Fondun regionlar üzrə ayırdığı kreditlərin 8 faizi respublikanın cənub-şərq bölgəsinin payına düşmüşdür. Bölgədə Dövlət Proqramlarına uyğun icra edilən layihələrin sayı artmış, yaradılan yeni iş yerləri əhalinin sosial-rifahının yaxşılaşdırılmasına kömək göstərmiş, əhalinin iri şəhərlərə axınının qarşısını almışdır. İşsizliyin aradan qaldırılması məqsədilə görülən tədbirlər müsbət nəticəsini vermişdir.

---

[38]Qalib A. Cəlilabadda sahibkarlıq fəaliyyəti genişlənir // Xalq. – 2005, 8 mart. – s. 5.

2014-2018-ci illərdə respublikanın cənub-şərq bölgəsində adam başına düşən ümumi daxili məhsulun göstəricisi xeyli artmış, bu göstərici 2018-ci ildə Astara rayonunda 1632,5 manat, Cəlilabad rayonunda 1852,2 manat, Lerik rayonunda 1151,3 manat, Lənkəran rayonunda 1911 manat, Masallı rayonunda 1455,4 manat, Yardımlı rayonunda isə 1112,1 manat olmuşdur. 2018-ci ildə bölgədə muzdla işləyənlərin sayı 75,2 min nəfər olmuşdur ki, buda 2003-cü illə müqayisədə 3,5 dəfə çoxdur. Göstərilən dövrdə bölgədə Dövlət Proqramlarının icrası ilə iqtisadi inkişaf formalaşdırılmış, kənd təsərrüfatı və sənaye sahələri üzrə sahibkarlıq subyektləri yaradılmışdır. Bölgə üzrə fəaliyyət göstərən sənaye müəssisələrinin sayı 2005-ci ildə 78, 2007-ci ildə 82, 2010-cu ildə isə 92 olmuşdur ki, bu da bölgə əhalisinin sosial rifahının yaxşılaşdırılmasına şərait yaratmışdır.

Göstərilən dövr ərzində respublikanın cənub-şərq bölgəsində yaradılmış yeni müəssisələr də əhəmiyyətli dərəcədə artmışdır.2009-2013-cü illərdə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq Sahibkarlığa Kömək Milli Fondu bölgədə sahibkarlığın inkişafına dəstəyin həyata keçirilməsi istiqamətində layihələrə güzəştli şəkildə investisiya qoyuluşunu təmin etmişdir. Belə ki, Dövlət Proqramlarının icrası ilə 2010-cu il iyulun 30-da Masallı və Cəlilabad rayonlarında fəaliyyət göstərən 29 sahibkarlıq subyektinə 340 min manat güzəştli kredit vermiş, bu da 50-dən çox yeni iş yerinin yaradılmasını təmin etmişdir.[39]

**"Tikinti və quruculuq işlərinin təşkili tarixindən (2003-2018-ci illər)"** adlı üçüncü paraqrafda bölgədə tikinti və quruculuq işlərinin təşkili tədqiqata cəlb edilmişdir. Bölgədə həyata keçirilən tikinti işləri sosial infrastruktur yenidən qurulmuşdur. Bununla yanaşı bölgədə tikinti sənayesinə daxil olan tikinti materiallarının istehsalı genişləndirilmiş, yeni tikinti materialları yataqlarının axtarışı və kəşfiyyatı gücləndirilmişdir. Bölgəyə daxil olan Astara, Lənkəran, Masallı, Yardımlı, Cəlilabad, Lerik inzibati rayon ərazisində geniş abadlıq və quruculuq işləri həyata keçirilmişdir.

---

[39]Sahibkarlara güzəştli kredit verilmişdir // Yeni həyat. – 2010, 9 avqust. – s. 3.

2003-cü il noyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev imzaladığı "Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsi tədbirləri haqqında" Fərmanı ölkənin yeni inkişaf mərhələsinə keçdiyini sürətləndirdi. Fərman respublikanın cənub-şərq bölgəsində tikinti-quruculuq və abadlıq işlərinin aparılması işini xeyli genişləndirmişdir.

2004-2007-ci illərdə rayonda tikinti materialları istehsalı ilə məşğul olan "Samit" MMC, "M-Şirvanlı" MMC, "Lənkəran" kərpic ASC, "Xarxatan" kərpic MMC, "Zaman" MMC-ləri yaradılmışdır. 2007-ci ildə rayonda tikinti müəssisələri tərəfindən il ərzində yerinə yetirilmiş tikinti işlərinin mənzil və kommunal təsərrüfatın inkişafı həcmi əvvəlki ilə nisbətən 2 dəfə artaraq 12,4 milyon manat olmuşdur. Tikinti müəssisələrində işləyənlərin sayı 394 nəfər olmuş, onların orta aylıq nominal əmək haqqı 141 manat təşkil etmişdir.[40]

Dövlət vəsaiti hesabına inzibati və yaşayış binaları inşa edildi. Tikinti sənayesinə daxil olan tikinti materiallarının istehsalı genişləndirildi. Statistik materiallardan nəticəyə gəlinir ki, bölgənin tikinti sahəsinə əsas kapitalla investisiyalar 2010-cu ildə 133763,3 manat qoyulubsa, 2016-cı ildə bu rəqəm 440064,5 manata çatdırılmışdır. 2012-ci ildə bölgə üzrə 40 tikinti təşkilatı fəaliyyət göstərirdisə, 2016-cı ildə onların sayı 47-ə çatmışdır. 2000-ci ildə bölgə üzrə 35,1 min $m^2$ yaşayış evləri iştifadəyə verilmişdisə, 2016-cı ildə isə bu rəqəm 114,7 min $m^2$ , 2018-ci ildə isə 125,4 min $m^{2-}$ə çatdırılmışdır. 2004-2018-ci illərdə respublikanın cənub-şərq bölgəsində aparılmış tikinti təmir işlərinin həcmi xeyli artmışdır.

**"Mənzil və kommunal təsərrüfatın inkişafı"** adlı dördüncü paraqraf üç bənddən ibarətdir. **"Bölgənin mənzil və içməli su təsərrüfatının inkişafı"** adlı birinci bənddə bölgənin mənzil və içməli su təsərrüfatının bərpası tədqiqata cəlb edilmişdir. 2003-cü ildə Lənkəran rayonunda ümumi sahəsi 46182 $m^2$ yeni yaşayış evləri istifadəyə verilmişdir ki, bu da ötən ilə nisbətən 33 faiz çoxdur. İstifadəyə verilmiş yaşayış evlərinin 38092 $m^2$-i və ya 82,5 faizi əhalinin şəxsi vəsa-

---

[40]Lənkəran rayon icra hakiminin 2007-ci il üçün illik hesabatı // Lənkəran rayon İcra Hakimiyyətinin cari arxivi, vərəq-9.

iti hesabına tikilmişdir. Rayonun sakinləri özlərinin mənzil şəraitini yaxşılaşdırmaq məqsədilə yaşayış tikintisinə 11923 min manat vəsait xərcləmişlər.

2004-cü ilin əvvəllərində Lənkəran rayonunun ümumi mənzil fondu 2418,1 min $m^2$ olmuşdu. Onun 2271,1 min $m^2$-i və ya 93,9 faizi fərdi mənzil fonduna, 147,0 min $m^2$-i və ya 6,1 faizi dövlət, ictimai və mənzil tikinti kooperativləri fonduna məxsusdur.[41] Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 2005-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikası rayonlarının, o cümlədən Lənkəran şəhərinin, Astara, Lerik, Masallı və Yardımlı rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair" tədbirlər planı təsdiq olunmuşdur. Tədbirlər planına uyğun olaraq bölgədə yaradılan yeni infrastruktur əhalinin sosial problemlərinin həllində mühüm rol oynamış, yeni lahiyələr həyata keçirilmişdir. 2005-ci ildə Lənkəran şəhərinin su, kanalizasiya sisteminin yenidən qurulması məqsədilə "Azərsu" SC-ti 500 min manat investisiya vəsaitinin ayrılması nəzərdə tutulmuşdur.[42]

Dövlət Proqramlarının(2004-2018-ci illər) icrası dövründə bölgədə ümumilikdə 175,2 km-dən çox su, 58,1 km-dən çox kanalizasiya xətti çəkilmiş, 50-dən çox su artezian quyusu tikilmiş və yenidənqurulmuş, 8 şəhərə rayon mərkəzlərində (Lənkəran, Yardımlı, Astara, Cəlilabad, Lerik, Masallı, Liman, Göytəpə) həyata keçirilən su təchizatı ilə yanaşı kanalizasiya layihələri başa çatdırılmışdır. Xanbulançay su tənzimləyici qurğusunun təmir-bərpa işlərindən sonra Lənkəran, Astara şəhərlərinin içməli suya olan tələbatı tam ödənilmişdir. Masallı, Yardımlı, Lerik və Cəlilabad rayonlarının inzibati yaşayış dairələrinin içməli su ilə təminatı qismən həyata keçirilmişdir.

**"Bölgənin elektrik təsərrüfatının yenidən qurulması"** adlı ikinci bənddə bölgənin elektrik təsərrüfatının yenidən qurulması tədqiqata cəlb edilmişdir. 2003-cü ildə bölgənin elektrik təsərrüfatında müəyyən problem mövcud idi və şəhər mərkəzləri belə enerji ilə tam

[41]Lənkəran rayonunun statistik göstəriciləri (2005-2008) / Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. – Lənkəran, – 2009, – 59 s.
[42]Regionların sosial-iqtisadi inkişafı (2004-2018-ci illər) / Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Statistik məcmuə. – Bakı: yanvar-2006, – 155 s.

təmin edilmirdi. 2006-cı ildə Astara rayonunda 87 MV+ gücündə yeni tikilmiş modul elektrik stansiyası istismara verilmiş, istehsal olunan elektrik enerjisinin sistemə ötürülməsi üçün 3,2 km uzunluğunda 2 dövrəli 110 kv-luq EVX çəkilmişdir. "Azərenerji" ASC-nin daxili imkanları hesabına 110 kv-luq Masallı yarımstansiyasında artıq yükləmə rejimində işləyən 2 ədəd 25 MVA gücündə transformatorlar hər biri 40 MVA gücündə yeni transformatorla əvəz edilmişdir. Astara rayonunun Zəngüləş kəndi yaxınlığında İstisu çayı üzərində "Astara 1" kiçik su elektrik stansiyasının tikintisi həyata keçirilmişdir. Stansiya elektrik enerjisi istehsalı ilə yanaşı, ətraf mühitin qorunmasında mühüm rol oynayacaqdır. Gücü 1,7 meqabayt olan stansiyada ildə 2,5 milyon kva/saat elektrik enerjisi istehsal ediləcəkdir.[43]

Yenidən qurulan "Lənkəran-2" yarımstansiyası Lənkəran şəhəri, 4 kənd və qəsəbə daxil olmaqla 17 min 500 abonenti elektrik enerjisi ilə təchiz edir və yarımstansiya müasir standartlara cavab verən elektron tipli rele mühafizəsi və avtomatika sistemləri ilə təchiz edilmişdir. Yarımstansiya məsafədən idarə olunan SCADA dispetçer sisteminə qoşulmuşdur. Respublikanın cənub-şərq bölgələsində əhalinin elektrik enerjisi ilə təmin olunması, abonentlərə yüksək səviyyəli xidmət göstərilməsi məqsədilə 2003-2018-ci illər ərzində də tədbirlərin icrası davam etdirilmişdir. Belə ki, bölgədə 2 elektrik stansiyası yenidən tikilmiş, 25 yarımelektrik stansiyası yenidən qurulmuş, 345 kilometr yeni elektrik xətləri çəkilmiş, 452 kilometr elektrik xətləri əsaslı təmir olunmuş, 156 transformator quraşdırılmışdır.

**"Bölgənin mavi qaz təsərüfatının bərpa etdirilməsi"** adlı üçüncü bənddə bölgənin mavi qaz təsərrüfatının yenidən qurulması və bu istiqamətdə görülən işlə tədqiqata cəlb edilmişdir. Lənkəran şəhərində əhalinin mavi qazla təmin etmək məqsədilə 117 km yeni xəttin çəkilməsi nəzərdə tutulurdu. Görülən işlər nəticəsində 2007-ci il Lənkəran şəhərində 10169 abonent üçün 9171 qaz sayğacı quraşdırılmışdır. Lənkəran Qaz İstismar İdarəsinin hesabatında göstərilir ki, il ərzində istehlakçılara 1 milyon 88 min 414 manat dəyərində 22

[43]Prezident İlham Əliyev "Astara 1" Kiçik Su Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak etmişdir // Xalq. – 2011, 16 aprel. – s. 1.

milyon 548 min kubmetr təbii qaz verilmiş, ödəniş isə 492 min 093 manat olmuşdur. Bu da verilən təbii qazın 45,2 faizini təşkil edir.

Yardımlı rayonunun təbii qazla təmin etmək məqsədilə Lerikin Ordaxal kəndindən rayon mərkəzinədək 28 km uzunluqda 219 mm-lik magistral qaz xətti çəkilmişdir. Magistral xəttin 36 yol, 6 çay keçidindən, 12 km sıldırım qayalardan, 10 km sıx meşəni keçməklə inşa edilmişdir. Xəttin çəkilişinə 11,5 milyon manat dövlət vəsaiti sərf olunmuşdur. 2007-ci ilin ilk altı ayı ərzində 433 fərdi yaşayış evi qazla təmin edilmişdir. Astara Qaz-Kompressor stansiyasının tikintisi respublikanın cənub-şərq bölgəsinin mavi qaz təsərrüfatının bərpasında əsas rol oynamışdır. Stansiyanın əsas funksiyası İran İslam Respublikasına ötürüləcək qazın təzyiqini 12 atmosferdən 55 atmosferə çatdırmaqdır. Belə ki, 2005-2018-ci illər ərzində bölgədə 871 km-dən çox qaz xətti çəkilmiş və ya təmir edilmiş, 8 rayon və şəhər üzrə 331 yaşayış məntəqəsi və yaşayış massivi qazlaşdırılmışdır.

**“Azərbaycan Respublikasının cənub-şərq bölgəsinin iqtisadi inkişafı”** adlanan ikinci fəsil dörd paraqrafdan ibarətdir. Birinci paraqraf “**Sənayenin inkişafı”** adlanır. Belə ki, sənaye sahəsində yeni yaradılan müəssisələrin yaranması və istehsal sahələrinin bərpa edilməsi ilə bu sahənin respublikanın bütün bölgələrində inkişafı sürətlənmişdir. 2004-cü ildə Lənkəran rayonunda “Vita”, “Lənkəran-süd”, ASC, “Lüks”, “Çinar” və “Maz” müəssisələri yaradılmış burada konservləşdirilmiş meyvə-tərəvəz məhsulları istehsal edilmişdir. Yerli fermerlər istehsal etdikləri məhsulları istehsal müəssisələrinə təhvil verərək bununla kənd təsərrüfatının inkişafına da şərait yaranmışdır. Astara rayonu üzrə balıqçılığın və balıq emalı sənayesinin yenidən qurulması və fəaliyyətinin genişləndirilməsinin dəstəklənməsi ilə əlaqədar 20 balıqçı vətəgəsi açılmış, 2 ədəd 10 tonluq soyuducu quraşdırılmışdır. Rayonda “Xəzərbalıq” MMC və “Kaspi” ABSK balıqçılıqla məşğul olaraq, axçalı balıq və kilkə balıq növlərinin ovlanması işini təşkil etmişdir. 2006-cı ilin üçüncü rübündə balıq ovlamaqdan ötrü 2 ədəd taxta kolaz və 6 qazandan ibarət 2 nevrot tikilib quraşdırılmışdır. 2012-cu ildə respublikanın cənub-şərq bölgəsi üzrə sənaye məhsulunun 89,7 faizi Masallı, Lənkəran və Astara rayonlarının payına düşmüşdür.

Bölgə sənayesində 2011-ci ildə 4113 nəfər işsi çalışdığı halda, 2012-ci ildə bu göstərici 4363 nəfərə bərabər olmuşdur. Həmin ildə bölgə sənayesində orta aylıq əmək haqqı 266,6 manat olmuşdur. Bölgənin emal sənayesinin digər sahələrində yeyinti sənayesi, yüngül sənaye, mebel sənayesi, tikinti materiallarının istehsalı sahələrində qabaqcıl texnologiyaları tətbiq edən yeni müəssisələr qurulmuşdur. 2013-cü ildə bölgənin sənaye müəssisələrinin sayı 76, işçilərin sayı 5560 nəfər olmuş, sənaye məhsulunun həcmi qeyri-dövlət sektorunun xüsusi çəkisi 59,9 faiz olmuşdur. Ümumilikdə 2010-2016-cı illərdə bölgənin sənaye istehsalı müəssisələrində artım tempi müşahidə edilmişdir.

2018-ci ildə bölgə üzrə fəaliyyət göstərən sənaye müəssisələrinin sayı 96-ya, sənaye məhsulunda qeyri-dövlət sektorunun xüsusi çəkisi 70,9 faiz, hazır məhsul ehtiyatının ilin axırına qalığı 30046,9 min manat olmuşdur. Sənaye müəssisələrində orta aylıq nominal əməkhaqqı 4,7 dəfə artaraq 648,5 manata, o cümlədən qeyri-dövlət bölməsində 753,2 manata çatmış və emal sənayesində 438,5 manat təşkil etmişdir. 2018-ci ildə bölgə üzrə tam gücü ilə işləyən sənaye zavodlarının sayı 21-ə çatmışdır.

**"Turizmin inkişafı"** adlı ikinci paraqrafda bölgə turizminin ümumi vəziyyəti tədqiqata cəlb edilmişdir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarına uyğun olaraq bölgədə müasir standartlara uyğun turizm obyektləri istifadəyə verilmiş və turizm sənayesinin inkişafına şərait yaratmışdır. Bölgənin turizm sənayesinə turist təşkilatlarının fəaliyyəti, müxtəlif sərnişin nəqliyyatı növlərinin xidməti, yerləşdirmə və iaşə vasitələri, rekreasiya, mədəni xidmətlər, idman tamaşaları, əyləncəli xidmət və köməkçi xidmətlər daxildir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 16 iyul tarixli 97 s. qərarı ilə "Turist ekskursiya xidmətlərinin sertifikatlaşdırılmasının keçirilməsi" qaydaları təsdiq edilmişdir. 2005-ci ildə Lənkəran rayonu ərazisində fəaliyyət göstərən "Xanbulan" turizm – istirahət mərkəzi, "Mamusta" Sağlamlıq Mərkəzi, "Dalğa" mehmanxanası, "Mehman" mehmanxanasının sənədləri "Turist ekskursiya

xidmətlərinin sertifikatlaşdırılmasına” qaydalarına uyğun hazırlanaraq, Gənclər, İdman və Turizm Nazirliyinə təqdim olunmuşdur.[44]

2004-2005-ci illərdə Lerik rayonu ərazisində “Şəlalə”, “Meşəçi”, “Təbəsüm”, “Şahmurad”, “Meşəbəyi”, “Mirzə”, “Çingiz”, “Natiq” kimi istirahət-turizm mərkəzləri yaradılmışdır. I Dövlət Proqramına uyğun olaraq “Təbəssüm” istirahət mərkəzində tikinti işləri aparılaraq, yeni koteçlər istifadəyə verilmişdir.2006-2008-ci illərdə bölgə üzrə mehmanxana xidmətləri müəssisələrinin gəlirləri 3,7 dəfə artmışdır ki, bu respublika üzrə müvafiq göstəricidən 2,4 dəfə çoxdur. Bu dövrdə bölgənin inzibati rayonlarından olan Lerikdə mehmanxana xidmətləri sahəsində əldə olunan gəlirlər daha yüksək olmuşdur.[45] Dövlət tərəfindən həyata keçirilən tədbirlər bölgəyə turist axınını gücləndirmişdir.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, ölkəmizə səfər edən xarici vətəndaşların sayına görə ilk beşliyi Rusiya Federasiyası, Gürcüstan, Türkiyə, İran və Səudiyyə Ərəbistanı tutur. İlk onluqda yer tutan sonrakı ölkələr isə Birləşmiş Ərəb Əmirlikləri, Hindistan, Ukrayna, Türkmənistan və İraq olmuşdur. 2016-cı ilin dekabr ayının 12-nə kimi Lənkəranda mehmanxana və mehmanxana tipli müəssisələrdə qalan turistlərin ümumi sayı 16120 nəfər təşkil etmişdir ki, onlardan da 1233 nəfəri xarici turistlər olmuşdur. Ən çox turist İran İslam Respublikası, Rusiya Federasiyasından olmuş, ərəb ölkələrindən olan turistlərin sayı 35 faiz artmışdır. İl ərzində Lənkəranda 3 yeni mehmanxana və mehmanxana tipli müəssisə iki hotel istifadəyə verilmişdir.[46] 2015-2018-ci illər ərzində bölgənin turizm müəssisələrinin sayında ortalama ildə 7,5 faiz, turizm sahəsində məşğulluq sə-

[44]Lənkəran İdman və Turizm İdarəsinin sənədləri (2004-2015-ci illər) // Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Lənkəran fillialı, fond №315, siyahı №1, vərəq-17.

[45]Lerik Şəhər İcra Hakimiyyəti Başçısı yanında şura iclasının protokolları (2004-2015-ci illər) // Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Lerik fillialı, fond №2, siyahı №1, vərəq-86.

[46]Lənkəran Turizm İnformasiya Mərkəzinin 2016-cı il ərzində gördüyü işlərin hesabatı // Lənkəran rayon İcra Hakimiyyətinin cari arxivi, vərəq-1.

viyyəsində 9,2 faiz, turizm məqsədilə gələn xarici ölkə vətəndaşlarının sayında isə 6,4 faiz artım müşahidə edilmişdir.

Bölgə üzrə turizmin inkişafının nəticəsidir ki, 2018-ci ildə burada 79 mehmanxana tipli obyekt mövcuddur və il ərzində 11 mehmanxana və mehmanxana tipli obyektə, 9 turizm şirkətinə xüsusi razılıq (lisenziya) verilmiş, mehmanxana və mehmanxana tipli müəssisələrində birdəfəlik tutum yeri 3249, gecələmələrin sayı isə 61502 nəfər olmuşdur. Yeni yaradılmış turizm-istirahət mərkəzlər, otellər, müalicəvi sağlamlıq mərkəzləri bölgədə turizmin inkişafında əsas rol oynamışdır.

**"Rabitə və İKT-nin inkişafı"** adlı üçüncü paraqrafda bögənin rabitə və İKT-nin modernləşdirilməsi tədqiqata cəlb edilmişdir.2004-cü ildə Lənkəran rayonu üzrə rabitə və kommunikasiya texnologiyaları üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə əlaqədar Rayon İcra Hakimiyyəti nəzdində Regional İnformasiya Mərkəzi yaradılmışdır. 2000-ci ildə Respublikanın cənub-şərq bölgəsi üzrə poçt, telefon, teleqraf müəssisələrinin sayı 147 idisə, 2016-cı ildə bu rəqəm 177-ə çatdırılmışdır.

2000-ci ildə bölgə üzrə hər 100 ailəyə düşən telefon aparatlarının sayı 37 idisə, 2012-ci ildə bu rəqəm 54-ə çatmışdır. Dünya İqtisadi Forumunun "The Global İnformation Technology Report 2010-2011" hesabatında Azərbaycan Beynəlxalq Telekommunikasiya İttifaqının hesabladığı "İKT qiymət səbəti" göstəricisi üzrə Azərbaycan 2009-cu ildəki 99-cu yerdən 2010-cu ildə 46 pillə irəliləyərək 53-cü yerə yüksəlmişdir.

2013-cü ildə Masallı rayonu üzrə ATS-lərin montaj tutumu 29.092, istifadə tutumu isə 23998 abonent olmuşdur. Rayon üzrə bütün ATS-lər tam elektronlaşdırılmış, kəndlərin sürətli internet xətti ilə təmin edilməsi həyata keçirilmişdir. Məlum olduğu kimi, kommunikasiya vasitələri insanları əlaqələndirmək, onları ünsiyyət vasitələri ilə təmin etmək üçün yaradılır. Kütləvi kommunikasiyalar kütləvi subyektlər üçün rabitə yardılmasına xidmət edir. 2014-cü ildə Cəlilabad rayonu üzrə abunəçilərin internetlə təmin edilməsi məqsədi ilə şəhər EATS-də 128 port, Göytəpə şəhərində 32 port, kənd EATS-lərdə 427 port artırılaraq DSLAM avadanlığı quraşdırılmışdır. Şəhə-

rin Heydər Əliyev prospektində 70 m, Sərhədabad, Cəlayır, Hamarqışlaq kəndlərində 335 m rabitə xətti yenisi ilə əvəz edilmişdir.

Bölgənin mövcud informasiya, rabitə sahələrinin intensiv və yüksək səviyyədə inkişafı, yeni xidmət növlərinin, o cümlədən mobil telefon rabitəsinin, sürətli internetin genişlənməsi ilə nəticələnmişdir. Informasiya cəmiyyətinə keçid, elektron hökumətin formalaşdırılması, intellektual potensialın inkişafı bölgə üçün mühüm hesab edilən informasiya və kommunikasiya texnologiyaları sahəsində dəyişikliklər baş vermişdir. Həyata keçirilən islahatlar nəticəsində yeni lahiyələr reallaşmış, internet xidmətlərinin tarifləri aşağı salınmış, dövlət və özəl müəssisələrdə İKT-nin geniş səviyyədə tətbiqinə nail olunmuşdur. “Azərspace-1”, “Azərspac e-2” və “Azərsky” adlı peyklərin orbitə buraxılması bölgənin milli informasiya və kommunikasiya infrastrukturunun müasir texnologiyaları əsasında qurulması, informasiya cəmiyyətinin təşkili nəticəsində əhaliyə göstərilən elektron xidmətlərin keyfiyyəti yüksəlmişdir.

2010-2018-ci illərdə bölgənin Elektron Telefon Stansiyalarının (ATS) xüsusi çəkisi 44,2 faizdən 88,4 faizə, telefon şəbəkəsində isə 62,6 faizdən 89 faizə çatdırılmışdır. Burada şəbəkə operatorları üzrə modernləşdirmə sahəsində görülmüş işlər nəticəsində telefon şəbəkəsinin tutumu 39 faiz, əsas telefon aparatlarının sayı isə 41 faiz artmışdır. Hər 100 nəfərə düşən əsas telefon aparatlarının sayı şəhərdə 70, kəndlərdə isə 39 olmuşdur. Bölgə üzrə ümumilikdə mobil telefon abunəçilərinin sayı 572,7 minə çatmışdır.Bölgə üzrə 122-i Elektron Telefon Stansiyası yenidən quraşdırılaraq istifadəyə verilmiş, 65 poçt binası yenidən tikilmişdir.

**“Yol və nəqliyyat infrastrukturunun təşkili”** adlı dördüncü paraqrafda bölgənin yol və nəqliyyat sistemi tədqiqata cəlb edilmiş və bu sahədə aparılan iş öyrənilmişdir. 2003-2018-ci illərdə respublikanın cənub-şərq bölgəsinin yol təsərrüfatı və nəqliyyat sisteminin təşkilində əsaslı işlər aparılmışdır. Bölgənin inkişafında baş verən mühüm dəyişikliklər nəqliyyat infrastrukturunda da qabarıq şəkildə nəzərə çarpmışdır. Bu sahədə həyata keçirilən genişmiqyaslı tədbirlər bölgənin sosial-iqtisadi inkişafına öz təsirini göstərmişdir. Bununla

da yol və nəqliyyat infrastrukturunun qurulması, təşkili işi genişlənmişdir.

2005-ci ildə Ələt-Astara dörd zolaqlı avtomobil yolunun tikintisi məqsədilə “Passilo” şirkəti tərəfindən yolun tikintisinin texniki iqtisadi əsaslandırılması planı hazırlanmışdır.2006-cı ilin oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yardımlı-Masallı yolunun açılışında iştirak etmiş, yenidən qurulan 53 km-lik yolda 6 körpü bərpa edilmiş, layihənin ümumi dəyəri 10 milyon manat olmasına baxmayaraq, 8 milyon manat xərclənmiş, 104 ton asfalt-beton işləri görülmüşdür. Bu yol 54 kəndin, o cümlədən, Masallı rayonunun 6, Yardımlı rayonunun 48 yaşayış məntəqəsinə gediş-gəlişi asanlaşdırmışdır.

2007-ci ildə Yardımlı rayonu ərazisində I Dövlət Proqramına uyğun yolların təmiri və saxlanmasına 6857,3 min manatlıq iş həcmi yerinə yetirilmiş, 58,8 km yol təmir edilmişdir. Cəlilabad rayonu 56 saylı Yol İstismar İdarəsinin hesabatında göstərilir ki, idarənin xidmətində olan 307 km-lik kəndlər arası avtomobil yollarından 133 km-inə asfalt örtülmüş, 105 min nəfərin yaşadığı 90 kəndi birləşdirən 174 km-lik kəndlər arası yola çınqıl tökülmüşdür.[47]

Bölgənin hava nəqliyyatı üzrə əsaslı iş görülmüş və ölkə başçısının tapşırığı ilə Lənkəran Hava Limanı tikilərək, bölgənin beynəlxalq hava nəqliyyatına qoşulması təmin edilmişdir. 2008-ci il oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Lənkəran Beynəlxalq Hava Limanının açılışını etmişdir. 2009-2013-cü illərdə ölkənin inkişafında mühüm rol oynayan yol və nəqliyyat sektorunda həyata keçirilən tədbirlər nəticəsində respublikanın cənub-şərq bölgəsində yol şəbəkələrinin bərpası işi genişləndirilmişdir. Bu dövr ərzində bölgə üzrə 416,5 km avtomobil yolları, 35 körpü ilə yanaşı tunel tikilmiş və əsaslı təmir olunmuşdur. Yol və nəqliyyat sistemində inkişaf, bölgənin sosial rifahının yüksəldilməsinə öz töhfəsini vermiş və sürətli iqtisadi inkişafı şərait yaratmışdır. Yol-nəqliyyat sektorunda həyata keçirilən islahatlar ilə bölgədə nəq-

[47]Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi, 56 saylı Yol İstismar İdarəsinin 2006-cı il üçün gördüyü işlər barədə arayışı // Cəlilabad rayon İcra Hakimiyyətinin cari arxivi, vərəq-1.

liyyat sisteminin yenilənməsi həyata keçrilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı 2012-ci il 3 aprel tarixli Sərəncam 26 km-lik Lerik-Qosmalyan-Kəlvəz yolunun əsaslı təmir edilməsini nəzərdə tuturdu. 2013-cü il 14 sentyabr tarixli digər Sərəncamı ilə 30 min nəfərin yaşadığı 50 yaşayış məntəqəsini birləşdirən Noda-Singədilan-Xanəgah avtomobil yolunun 36 km-inin əsaslı təmiri həyata keçirilməyə başlanılmışdır. 2003-2018-cü illərdə respublikanın cənub-şərq bölgəsində yol şəbəkələrinin bərpası işi genişləndirilmiş, bu dövr ərzində bölgə üzrə 892 km avtomobil yolları, 50-dən çox körpü ilə yanaşı tunel tikilmiş və əsaslı təmir olunmuşdur. Təkcə 2018-ci ildə avtomobil nəqliyyatı ilə yük daşınması 8348 min ton, bölgənin ümumi yük dövriyyəsi 1218,3 milyon ton, ümumilikdə avtomobillərin sayı 72316 ədəd olmuşdur. Astara, Lənkəran, Masallı, Cəlilabad, Yardımlı, Lerik rayonlarının şəhər, qəsəbə və müəyyən kənd yolları tam yenidən təmir edilmişdir. Masallı, Yardımlı, Cəlilabad şəhərlərinin avtovağzal stansiyaları yenidən təmir edilərək istifadəyə verilmişdir. 2018-ci ildə Davos İqtisadi Forumunun hesablamalarına görə, ölkəmiz yol tikintisi sahəsində dünyada 34-cü yerdədir ki, burada bölgənin yol tikintisində aparılan işlərin xüsusi çəkisi vardır.

2003-2018-ci illərdə respublikanın cənub-şərq bölgəsinin avtomobil yollarında hərəkətin təşkili və təhlükəsizliyinin təmin olunması, məqsədilə yollarda 457 km hərəkət hissəsinə nişanlama xətləri çəkilmiş, 921 km əyrixətli brus, 685 ədəd siqnal dirəyi, 782 ədəd müxtəlif təyinatlı yol nişanları quraşdırılmışdır.

**"Azərbaycan Respublikasının cənub-şərq bölgəsində aqrar sektorun inkişafı"** adlı üçüncü fəsil beş paraqrafdan ibarətdir. Birinci paraqraf **"Taxılçılıq"** adlanır. Burada bölgənin taxılçılıq təsərrüfatı tədqiqata cəlb edilmişdir. Ölkə başçısının 2004-cü il 23 oktyabr tarixli "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncamına əsasən yaradılan "Aqrolizinq" ASC-ti kənd təsərrüfatı ilə məşğul olan fermerlərə aqrokimyəvi maddələr, yüksək reproduksiyalı buğda toxumları ilə təchizatını və müasir texnika ilə təmin edilməsi işi xeyli yaxşılaşdırılmışdır. Bölgənin taxılçı-

lıq təsərrüfatının yüksək inkişaf etdiyi inzibati ərazilərindən biri Cəlilabad rayonudur.

2004-cü ildə rayonun Günəşli kəndində aqroservis yaradılmış, fermerlər müasir texnika kombayn, traktor, toxum səpən, torpaq becərən və çiləyicilər verilmişdir. 2005-ci ildə "Aqrolizinq" ASC-tinin regional nümayəndəliyi rayonda yaradılmışdır. Lerik rayonunda fəaliyyət göstərən İFAD (Kənd Təsərrüfatının inkişafı üzrə Beynəlxalq Fond) köməyi ilə 40 nəfər fermerin torpaq sahəsində 25 hektar sahədə taxıl əkilmişdir. 2005-ci ildə Lerik rayonu üzrə qeydiyyatdan keçən 169 müəssisə kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olmuşdur. Həmin ildə rayon üzrə 7194 hektar sahədə taxıl əkilmiş və məhsuldarlıq hər hektardan 17,2 sentner olmaqla 12374 ton taxıl toplanmışdır.

I Dövlət Proqramında da nəzərdə tutulur ki, Astara rayonu üzrə çəltikçilik sahəsində böyük təsərrüfatlar yaradılmalıdır. Rayonun Artupa, Alaşa. Ərçivan, Kakalos, Siyəkəran, Təngərüd, Pensər kəndlərində çəltikçilik üzrə fermer təsərrüfatları yaradılmışdır. Çəltikçilik təsərrüfatı ilə məşğul olan fermerlərdən Loğman Dadaşov, Ağadədə Cavadov, Əlibaba Əliyev, Hökuməli Əliyev, Pərviz Əhədov, Qafar Abidinov, Mirtağı Murtuzayev hər hektardan 50 sentnerə yaxın məhsul istehsal etmişlər. Ən çox əkilən çəltik növləri "Haşımi", "Sədri", "Ənbərbu", "Çiləyi" və "Qasım xan" olmuşdur. 2011-ci ildə bölgə üzrə dənli və dənli paxlalı bitkilər istehsalı 2,3 dəfə, buğda istehsalı 2,0 dəfə, arpa istehsalı 3,1 dəfə, qarğıdalı istehsalı 3,7 dəfə, günəbaxan istehsalı 4,6 dəfə, çəltik istehsalı isə 4,1 dəfə artmışdır. Əsas taxıl istehsalı rayonları Cəlilabad, Yardımlı, Masallı və Lerik olmuşdur. 2015-ci il Prezident İlham Əliyev tərəfindən "Kənd təsərrüfatı ili" elan edilmişdir. Bununla bağlı bölgədə müvafiq qurumlar tərəfindən fermerlərlə seminarlar təşkil edilmiş, taxılçılıq təsərrüfatlarında ekoloji cəhətcə təmiz məhsulların istehsalının artırılması istiqamətində işlər aparılmışdır.

Bölgədə taxıl əkini müddətli vergi güzəştlərinin verilməsi və kreditlər hesabına artmışdır. Əgər 2003-cü ildə Cəlilabad rayonu üzrə 45994 ha taxıl əkilmişdisə, 2016-cı ildə bu rəqəm 68469 ha çatmışdır. Ümumilikdə bölgə üzrə taxıl əkini 89721 ha çatmış, məhsul-

darlıq isə 29,3 sentner olmuşdur. 2016-cı ildə Lənkəran Astara və Masallı rayonlarında 650 hektar sahədə çəltik əkilmiş və 1568,5 ton məhsul götürülmüşdür. 2017-ci illə müqayisədə bölgədə çəltık əkini 30 faiz artaraq orta məhsuldarlıq 40,1 sentner olmuşdur. 2018-ci ildə bölgə üzrə taxıl əkini 89.992 min hektar sahə olmuş, məhsuldarlıq 25,5 sentnerə çatmışdır. Təkcə, Cəlilabad rayonu üzrə 68469 ha sahədə taxılçılıq təsərrüfatları yaradılmış və məhsuldarlıq hər hektardan 29 sentner olmuşdur. Dövlət tərəfindən verilən güzəştlər, fermerlərə göstərilən qayğı nəticəsində yeni təsərrüfatlar yaranmış və taxıl əkini xeyli genişləndirilmişdir. Bölgənin əsas taxılçılıq təsərrüfatları Cəlilabad, Yardımlı, Lerik və Masallı rayonlarında yaradılmışdır.

**"Çayçılıq"** adlı ikinci paraqrafda bölgənin çayçılıq təsərrüfatının inkişafı tədqiqata cəlb edilmişdir. Hələ sovet dövründə cənub bölgəsinin əsas təsərrüfat sahəsi olan çayçılıq təsərrüfatı 1990-cı illərin əvvəllərində tənəzzül dövrünü yaşamışdır. Bu dövrdə çay plantasiyaları və suvarma sistemləri dağıdılmış, çayçılıq təsərrüfatı əvvəlki şöhrətini itirmişdir.

2004-cü ildə Lənkəran rayonunda çayçılıq təsərrüfatının inkişafı məqsədilə "Lənkəran çay-5" müəssisəsi 4 hektar sahədə çay əkini həyata keçirmiş və tinglik təsərrüfatı yaradılmışdır. Rayon Aqrar İslahat Komissiyasının nəzdində yaradılmış işçi qrupunun təklifinə əsasən yeni çay plantasiyalarının salınması məqsədilə "Tükəvilə" çayçılıq istehsal kooperativi yaradılmış, Sağlaküçə, Vilvan kəndləri ərazisində 8 hektar yeni çay sahəsinin salınması planlaşdırılmışdır. Çayçılıq təsərrüfatı üzrə "Havzava", "İstisu" istehsal kooperativləri, "Hirkan" fermerlər İttifaqı, "Bərəkət", "Həqiqət" və "İslam Tağızadə" kimi fermer təsərrüfatları yaradılmışdır. Lənkəran rayonunun Vilvan kəndində İlyas Əliyevin rəhbərliyi ilə "İlyas çay" fermer təsərrüfatı yaradılmışdır. Təsərrüfatın 5 hektar çay sahəsi vardır ki, ildə orta hesabla 4,5 ton yaşıl çay yarpağı yığıb əla növ kimi emal müəssisələrinə təhvil verir. 2004-cü ildə əkilmiş çay tinglərindən 7 ton məhsul yığılırdısa, ildən-ilə məhsul artımı əldə edilərək istehsal 15-20 tona çatmışdır.[48] Lənkəran rayonunda ilk dəfə olaraq fermer

---

[48] Çayçılığın inkişafında yeni mərhələ // Respublika. – 2009, 31 iyul. – s. 4.

İlyas Əliyevin təsərrüfatında tətbiq olunan səmərəli əkim sxemi üçüncü ildən öz müsbət nəticəsini vermişdir.

Astara rayonunda fəaliyyət göstərən "Emin", "İlkin", "Xəzər", "Almaz" kimi kəndli fermer təsərrüfatlarında çayçılıq məhsuldarlığına görə fərqlənir. N.Rəsulovun, N.Əhmədovun, S.Əzimovun, T.Əsədovun, E.Babayevin, M.İmaməliyevin, A.Fərziyevin rəhbərlik etdiyi təsərrüfatlardan ümumilikdə hər il 350-400 ton yaşıl çay yarpağı yığılaraq emal müəssisələrinə təhvil verilir. Fermer təsərrüfatlarının qarşısında duran əsas vəzifələrdən biri yeni çay plantasiyalarının salınmasıdır.

2010-cu ildə Tələt Məmmədovun rəhbərliyi ilə "Astaraçay" MMC-i yaradılmışdır. Təsərrüfatın yaradılmasında məqsəd cənub bölgəsində çayçılığın inkişafına nail olmaq, müasir texnika və avadanlıqlardan istifadə etməklə, bölgədə çayçılığın əvvəlki şöhrətini geri qaytarmaqdan ibarətdi. Təsərrüfatda 2011-ci ildə 178 hektar, 2012-ci ildə 8 hektar, 2013-cü ildə 93 hektar və 2014-cü ildə 114 hektar çay bitkisi əkilmişdir.[49] 2012-ci il oktyabr ayının 1-nə olan məlumata görə, rayonda 381 ton yaşıl çay yarpağı yığılmış, hər hektardan götürülən məhsuldarlıq 23 sentnerə çatdırılmışdır. Astara rayonunun Kijəbə, Şüvü, Ojakəran kəndlərində 115 hektar yeni çay plantasiyaları salınmışdır. Astara rayonunun Kijəbə qəsəbəsində fəaliyyət göstərən "Emin" fermer təsərrüfatı 34 hektar sahədə 100 ton yaşıl çay yarpağı yığmağa nail olmuşdur.[50]

"Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018-2027-ci illərdə Dövlət Proqramının" uğurlu icrası nəticəsində əkilən çay sahələri 3000 hektara, yaşıl çay yarpağı yığımı 8,5 tona çatacaqdır ki, bu da ölkənin çaya olan tələbinin xeyli hissəsini ödəyəcəkdir. Təkcə, Masallıda 2013-cü ildə 5 hektar çay sahəsi olduğu halda, 2018-ci ildə isə 103 ha çatdırılmış, məhsuldarlıq 0,6 sentner olmuşdur. 2018-ci ildə bölgə üzrə 1077 ha sahədə ümumi çay sahəsi

---

[49] Məlikov E. Azərbaycan Respublikasının Cənub bölgəsində çayçılıq təsərrüfatının inkişafı tarixindən (2003-2018-ci illər) // Lənkəran Dövlət Universitetinin Elmi Xəbərləri, Humanitar Elmlər, LDU mətbəəsi, – 2020, (I) – s. 106.

[50]Astarada bu il 400 ton yaşıl çay yarpağı yığımı nəzərdə tutulub // Yaşıl çay jurnalı. – 2012. № 2 (O2), – s. 48 .

mövcud olmuş, istehsal 812 tona çatmışdır. Çay əkini ilə məşğul olan 54 fermer təsərüfatı yaradılmışdır.

**"Üzümçülük"** adlı üçüncü paraqrafda bölgənin üzümçülük təsərrüfatı tədqiqata cəlb edilmişdir. Respublikanın cənub-şərq bölgəsi üzrə üzümçülüyün inkişaf etdirilməsi Cəlilabad rayonunda daha sürətli həyata keçirilmişdir. Belə ki, I Dövlət Proqramına uyğun olaraq Lənkəran, Masallı rayonlarında yeni üzüm plantasiyalarının salınması həyata keçirilmişdir. 2006-cı ildə Cəlilabad rayonu üzrə 652 ton üzüm istehsal olunmuşdur ki, bu da əvvəlki illə müqayisədə 232 ton çoxdur. 2008-ci ildə rayon ərazisində 300 hektar yeni bağ salınmış və üzümlüklərin ümumi sahəsi 1500 hektara çatdırılmışdır. Cəlilabad rayonu üzrə üzüm bağlarından 1792 ton məhsul yığılmışdır ki, bu da 2007-ci ildəkindən 597 ton çoxdur. Cəlilabad rayonunun Qarazəncir kəndində müasir tipli şərab zavodunun istifadəyə verilməsi ilə üzümçülüyə maraq fermerlərdə daha da artmışdır. 2012-ci il rayon icra hakimiyyətinin illik hesabatında göstərilir ki, rayonda həyətyanı sahələrdə 200 hektardan çox üzüm bağları salınmışdır ki, ümumilikdə rayon ərazisində hər hektardan 60,8 sentner olmaqla 9170 ton məhsul istehsal edilmişdir. Bu da 2011-ci illə müqayisədə 2308 ton çoxdur.[51]

Bölgədə üzümçülüyün inkişaf etdirilməsi, aqrar sektorun bərpası, bu sahə ilə məşğul olan fermerlərin maddi rifahının yüksəldilməsinə kömək göstərmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı" təsdiq edilmiş və nəticədə bölgədə üzümçülük təsərrüfatı və şərabçılıq müasir standartlara uyğunlaşdırılmışdır. Cəlilabad Rayonunun Qarazəncir kəndində Zeynalov Namik 38 hektar, Təzəkənd kəndində Nərimanov Sahib 55 hektar, Nağıyev Əliyar 67 hektar, Üçtəpə kəndində Cəfərova Zülfiyyə 98 hektar, Şiləvəngə kəndində İsparov Nuru 25 hektar sahədə yeni texnologiya ilə texniki və süfrə növlərindən ibarət üzüm bağları salmışlar. Üzüm istehsalı üçün bölgənin əlverişli təbii-iqlim şəraiti

[51]Cəlilabad rayon icra hakiminin 2011-ci il üçün illik hesabatı // Cəlilabad rayon İcra Hakimiyyətinin cari arxivi, vərəq-9.

imkan verir ki, yüksək iqtisadi səmərəliliyə malik sortların hesabına daxili tələbat ödənilsin və qonşu ölkələrin bazarlarında yüksək keyfiyyətli məhsul çıxarılsın. Ölkədə şərab və digər üzüm emalı məhsullarına olan tələbat üzümçülüyün bölgədə inkişaf etdirilməsini zəruri edir.

Lənkəran rayonu ərazisində 20 hektar yeni üzüm təsərrüfatları yaradılmışdır. Rayonun Nərmanabad və Qızlağac inzibati ərazisində əkinə yararlı sahələr müəyyənləşdirilmiş və yeni təsərrüfatlar yaradılmışdır. Bölgədə aqrar sektor üzrə məhsul istehsalı üçün yaradılmış əlverişli şərait, müəyyən edilmiş güzəştlər və subsidiyalar, bu sahədə fəaliyyət göstərən fermerlərin torpaq vergisi istisna olmaqla vergilərdən azad edilməsi, burada üzümçülük və şərabçılığın inkişafına təkan vermişdir. Cəlilabad rayonu üzrə əkilən üzüm plantasiyalarının sahəsi 1537 hektara çatdırılmışdır. Burada 44 fermer təsərrüfatı qeydiyyata alınmışdır. Lənkəran rayonu ərazisində 20 hektar, Masallı rayonu üzrə 21 hektar yeni üzüm plantasiyaları salınmışdır. Əgər 2003-cü ildə bölgə üzrə 49,4 ha üzümçülük sahəsi mövcud olmuşdursa, 2018-ci illə müqayisədə 1715 ha çatmış və 18520 ton məhsul istehsal olunmuşdur.

**“Heyvandarlıq”** adlı dördüncü paraqrafda bölgənin heyvandarlıq təsərrüfatı tədqiqata cəlb edilmişdir. I Dövlət proqramına uyğun olaraq Cəlilabad rayonunda heyvandarlıq təsərrüfatını inkişaf etdirmək məqsədilə 2005-ci ildə “Cəlilabad-camışlıq” Assosiasiyası yaradılmışdır. Ət və süd məhsulları istehsal edən zavod-sexlərin tikintisi  üçün layihələr hazırlanmışdır. Bölgə üçün ənənəvi olmayan yeni heyvandarlıq təsərrüfatının inkişaf istiqaməti müəyyənləşdirilmişdir. Belə ki, Lənkəran Şəhər İcra Hakimiyyətinin 2005-ci il 16 iyun tarixli Sərəncamı ilə Nərimanabad-2 qəsəbəsində yerləşən “Təbiət” MMC-inə qunduzçuluq təsərüfatının inkişaf etdirilməsi üçün Dövlət Ehtiyat Fondu torpaq sahəsindən 50 il müddətinə 25 ha torpaq sahəsi icarəyə verilmişdir.[52] Lənkəran rayonunun Digah kəndində yaradılmış damazlıq-heyvandarlıq fermer təsərrüfatı məhsuldar

---

[52]Lənkəran Şəhər İcra Hakimiyyəti Başçısının yanında şura iclasının protokolları (2004-2015-ci illər) // Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Lənkəran fillialı,  fond № 278, siyahı №1, vərəq-8.

fəaliyyəti ilə mal-qaranın sayını 27 başdan 125 başa, davarların sayını 31 başdan 160 başa çatdırmışdır. II Dövlət Proqramının həyata keçirildiyi 5 il ərzində Masallı rayonu üzrə iri buynuzlu mal-qaranın baş sayı 15000 başdan artıq çoxalaraq 66375 başa çatmış, xırda buynuzlu mal-qaranın sayı isə 16200 baş artaraq 72,4 minə çatmışdır. Həmin dövrdə ət istehsalı 4543 tona, süd istehsalı 44155 tona, yumurta istehsalı 42 milyon 780 minə çatmışdır.

Cəlilabad rayonunda "Günəşli-Arqo" MMC-nin nəzdində aqro-park yaradılmışdır ki, burada iki ferma müasir standartlara uyğun quraşdırılmışdır. Burada xaricdən südlük və ətlik istiqamətli 460 baş iri buynuzlu mal-qara gətirilmişdir. Burada peyin qurutma və paketləmə işlərini həyata keçirmək məqsədilə Türkiyədən hər birinin gündəlik istehsal gücü 50 ton olan 2 ədəd yeni avadanlıq gətirilərək quraşdırılmışdır. 2000-ci illə müqayisədə 2018-ci ildə bölgəsi üzrə heyvandarlığın inkişafı statistik matreallarda əksini tapmış, iribuy-nuzlu mal-qara sayı 328681, qoyun və keçilərin sayı 450675, quşların sayı 2372190, arı ailələri sayı 60981, ət istehsalı isə 27537 ton olmuş-dur. "Heyvandarlığın cins tərkibinin yaxşılıaşdırılmasına dövlət dəs-təyi haqqında" Azərbaycan Respublikasının Prezidentinin 2015-ci il 19 avqust tarixli Sərəncamı ilə süni mayalanma yolu ilə alınmış hər baş buzova görə heyvan sahiblərinə dövlət büdcəsinin vəsaiti hesa-bına 100 manat subsidiyanın verilməsini nəzərdə tutur. Sərəncam ailə fermer təsərrüfatlarında heyvandarlığın inkişafına müsbət təsir gös-tərmiş və mal-qaranın cins tərkibinin dəyişdirilməsində mühüm rol oynamışdır. 2017-ci ilin son rübündə Astara rayonunda 76 nəfərə süni mayalanma nəticəsində alınan buzovların hər başına görə 100 manat subsidiya ödənilmişdir.

Göstərilən dövlət qayğısı nəticəsində Azərbaycan Respublikası-nın cənub-şərq bölgəsində heyvandarlıq təsərrüfatı inkişaf etmişdir. Bölgənin Lerik, Yardımlı və Cəlilabad rayonlarında iri heyvandar-lıqla məşğul olan fermer təsərrüfatları yaranmışdır. Lənkəran, Astara və Masallı rayonlarında əsasən ailə fermer təsərrüfatları üstünlük təşkil edir. Ümumilikdə bölgə üzrə 2003-2018-ci illərdə 6524 baş cins damazlıq heyvan gətrilərək, 50 faiz güzəştlə 3 il müddətinə fermerlərə lizinqə verilmiş, 567 heyvandarlıq təsərrüfatı yaradılmış-

dır. Nəticədə, 2000-ci illə müqayisədə 2018-ci ildə bölgə üzrə heyvandarlığın inkişafı statistik materiallarda əksini tapmış, iri buynuzlu mal-qara sayı 328681, qoyun və keçilərin sayı 450675, quşların sayı 2372190, arı ailələri sayı 60981, ət istehsalı isə 27537 ton olmuşdur.

**“Sitrus meyvəçiliyi, tərəvəzçilik və bağçılıq”** adlı beşinci paraqrafda bölgənin sitrus meyvəçiliyi, tərəvəzçilik və bağçılıq təsərrüfatı tədqiqata cəlb edilmişdir. 2003-cü ildən başlayaraq Lənkəran rayon ərazisində 300 hektar sitrus və subtropik meyvə bağları bərpa edilmiş, tinglik təsərrüfatı yaradılmışdır. I Dövlət Proqramına uyğun 91 hektar sahədə bərpa işləri aparılmış, 44 hektar sahədə yeni bağlar salınmış, sitrus meyvəçiliyi sahəsində Lənkəran rayonunda “Vüsal” istehsal kooperativi yaradılmışdır.[53]

2008-ci ildə respublikanın cənub-şərq bölgəsində sitrus meyvəçiliyi 37,2 faiz, tərəvəzçilik və bağçılıq üzrə məhsul istehsalı 29,3 faiz artmışdır. I Dövlət Proqramının uğurlu tətbiqi nəticəsində məhsul istehsalı respublika səviyyəsində xeyli artmışdır. Bölgədə sitrus meyvəçiliyi, tərəvəzçilik və bağçılıq kimi aqrar sektorda məhsul istehsalında artım nəticəsində, faktiki qiymətlərlə dəyəri 2008-ci ildə 22,7 milyon manat olmuşdur ki, bu da 2000-ci illə müqayisədə 22,4 faiz çoxdur. 2000-ci illə müqayisədə 2008-ci ildə bölgədə sitrus meyvə və giləmeyvə 30,1 faiz, bostan məhsulları 9,7 faiz, tərəvəzçilik və bağçılıq isə 45,3 faiz çox istehsal olunmuşdur. Bölgə üzrə sitrus meyvə bağlarının sahəsində 2002-ci ilə qədər azalma müşahidə olunmuş, lakin 2002-2005-ci illər ərzində bunun qarşısı alınmışdır. 2008-ci ildən ölkədə aqrar sektora dövlət dəstəyinin daha da gücləndirilməsi bölgədə sitrus meyvəçiliyinin sürətlə genişlənməsinə səbəb olmuşdur.

I və II Dövlət Proqramının uğurlu həyata keçirilməsi ilə Lerik rayonunda bağçılıq təsərrüfatı inkişaf etmişdir. 2012-ci ildən başlayaraq rayon ərazisində kartof, tərəvəz və meyvə bağlarının əkin sahəsi genişləndirilmişdir. Rayonun Kələxan inzibati ərazisinin Qışlaq kəndində 70 hektar sahədə kartof toxumçuluğu müəssisəsi yara-

[53]Məlikov E. Azərbaycan Respublikasının cənub-şərq bölgəsində sitrus meyvəçiliyi, tərəvəzçilik və bağçılığın inkişafı (2003-2018) // Gənc Tədqiqatçı Elmi-praktiki jurnal, – 2020, 6(2), – s. 143.

dılmışdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən imzalanan 2014-cü il 3 oktyabr tarixli Sərəncam ilə Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyinin əsasında Kənd Təsərrüfatı layihələri və kreditlərin idarə edilməsi üzrə Dövlət Xidməti yaradılmışdır. Sərəncam bölgədə kənd təsərrüfatı üzrə layihələrin maliyyələşdirilməsində əsaslı rol oynamış və kənd təsərrüfatının inkişafına şərait yaratmışdır.

Bölgədə təsərrüfat subyektləri arasında stimullaşdırıcı tədbirlərin keçirilməsi məqsədilə Sahibkarlığa kömək Milli Fondu tərəfindən Lənkəran, Masallı, Cəlilabad və Astara rayonlarında "Sahibkarlığın güzəştli kreditləşdirilməsi məsələlərinə" dair forumlar keçirilmişdir. Burada sitrus və tərəvəz istehsalı ilə məşğul olan fermerlərin inverstisiya layihələri və təsərrüfatlarının genişləndirilməsi məsələləri müzakirə edilərək onlara köməklik göstərilmişdir. 2016-cı ildə sahibkarlığa kömək Milli Fondu tərəfindən Masallı rayonunda tərəvəz və bağçılıqla məşğul olan sahibkarlar da daxil olmaqla 57 layihə üzrə 10.719.500 manat kredit verilmişdir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev bölgədə aqrar sektorun inkişafı istiqamətində mühüm işlər görmüş və yaradılmış sitrus və tərəvəz bağları ilə yaxından tanış olmuşdur. 2017-ci ilin sentyabrın 2-də ölkə başçısı Lənkəranda "Gilan Orchards" MMC tərəfindən salınmış sitrus bağları ilə tanış olmuşdur. Burada ölkə başçısına yetişdiriləcək sitrus meyvələri və onlardan hazırlanan məhsulların nümunələri təqdim olunmuşdur. Belə ki, 2013-2018-ci illərdə bölgə üzrə sitrus meyvəçiliyi 1411 hektar, tərəvəzçilik və bağçılıq üzrə isə 1789 ha artım müşahidə olunmuşdur. Təkcə, 2018-ci ildə bölgə üzrə ümumilikdə 74.341 ton sitrus məhsulu və 177.006 ton tərəvəzçilik və bağçılıq məhsulu istehsal edilmişdir. Bölgə üzrə ümumilikdə 8124 ha sahədə sitrus bağları və 11426 ha sahədə isə tərəvəzçilik və bağçılıq təsərrüfatları mövcud olmuşdur.

**"Azərbaycan Respublikasının cənub-şərq bölgəsinin sosial-mədəni inkişafı"** adlı dördüncü fəsil dörd paraqrafdan ibarətdir. Birinci paraqraf **"Təhsil infrastrukturunun qurulması, təhsilin və elmin inkişafı"** adlanır. Burada bölgədə təhsil və elmin inkişafı tədqiqata cəlb edilmişdir. Təhsil sahəsində həyata keçirilmiş islahatlar

bu sahənin respublika üzrə inkişafına şərait yaratmışdır. Təhsil sahəsində həyata keçirilən tədbirlərdə Heydər Əliyev Fondu mühüm rola malikdir. Heydər Əliyev Fondunun təhsillə bağlı qarşıya qoyduğu əsas məqsəd Azərbaycanda bu sahəni inkişaf etdirərək beynəlxalq səviyəyə çatdırmaqdır. Respublikanın cənub-şərq bölgəsində Heydər Əliyev Fondunun vəsaiti hesabına məktəb tikintisi genişləndirilmiş və Dövlət Proqramlarına uyğun müasir standartlara cavab verən tədris infrastrukturu yaradılmışdır. Bölgədə təhsil infrastrukturunun yenidən qurulması məktəb tikintisinin ildən-ilə artması təhsilin keyfiyyətinə müsbət təsir göstərmişdir. Hələ sovet dövründə bölgədə qəzalı vəziyyətdə olan təhsil müəssisələri yenisi ilə əvəzlənmiş və müasir avadanlıqlarla təmin eldilmişdir. 2004-2006-cı illərdə Astara rayonunda Ərçivan kənd 2 №-li 320 şagirdlik məktəb, Miki və Toroba kənd orta məktəblərinin tikintisi başa çatdırılmışdır. Maşxan, Əsxənəkəran, Təngərüd, Sağlazüzə, Kijəbə və Şüvü kənd orta məktəblərinin əsaslı təmiri həyata keçirilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin 2005-ci il 21 sentyabr tarixli qərarı ilə Lənkəran Regional Elmi Mərkəzi yaradılmışdır. Elmi təşkilatın yaradılmasında məqsəd cənub bölgəsində elmi-texniki potensialı inkişaf etdirmək, fundamental və innovasiya xarakterli tədqiqat işlərinin təşkilini həyata keçirmək, bölgənin tarixini, adət ənənəsini və mədəniyyətini tədqiq etməkdən ibarət olmuşdur. Bölgənin mühüm elmi-tədqiqat müəssisələrindən biri Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun Lənkəran Çay filialıdır. Burada bölgənin çayçılıq təsərrüfatı və onun səmərəsi, sitrus meyvəçiliyi öyrənilir. 2004-2018-ci illərdə burada elmi-tədqiqat işlərinin həcmi artmış və mühüm elmi nəticələr əldə edilmişdir.

Birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" adlı layihəyə görə bölgədə mərhələ-mərhələ 100-dən artıq təhsil müəssisəsi yenidən tikilərək istifadəyə verilmişdir. 2009-2011-ci illərdə Lənkəran rayonunda şəhər 4 №-li orta məktəbi əsaslı təmir olunmuş, 360 yerlik əlavə sinif otağı tikilmişdir. Osaküçə, Rvo, Şövü, Hirkan, Xarxatan, Şilavar kənd orta məktəblərinin tikintisi başa çatdırılmışdır. Belə ki,

rayonunu Sütəmurdov kəndində 600 yerlik, Havzava kəndində 220 yerlik, Çil kəndində 220 yerlik, Türkəkəran kəndində 220 yerlik məktəb binalarının tikintisi başa çatdırılmışdır.

2016-2017-ci tədris ilində LDU-da bakalavriat üzrə 2500-dən çox bakalavr, magistratura üzrə 100-dən çox magistr, 20-dən çox doktorant və dissertant təhsil almış, onların təlim-tərbiyəsi ilə 300-dən çox professor-müəllim və texniki köməkçi heyət məşğul olmuşdur. Bölgədə təhsil infrastrukturunun qurulması nəticəsində 250-dən çox yeni təhsil müəssisələri inşa edilmiş və ya əsaslı təmir olunmuşdur. Tikinti işləri Heydər Əliyev Fondunun vəsaiti hesabına və Dövlət Proqramlarına uyğun həyata keçirilmişdir.2018-ci ildə bölgədə ümumi təhsil müəssisələrinin sayı 557-yə, məktəbəqədər təhsil müəssisələrinin sayı isə 124-ə çatmış və burada təhsil alanların ümumi sayı 131709 nəfər olmuşdur.

**“Səhiyyənin inkişafı”** adlı ikinci paraqraf bölgə səhiyyəsinin tədqiqinə həsr edilmişdir. 2003-cü ildə bölgədə 152 tibb müəssisəsi mövcud olmuş, xəstəxanalarda çarpayıların sayı 4415, həkimlərin sayı 913 nəfərə çatmış və burada ixtisaslı həkimlər çatışmır, maddi-texniki baza zəif idi. Tibb müəssisələrinin 90 faizinin təmirə ehtiyacı olmuş və bəziləri qəzalı vəziyyətdə idi. Bölgədə səhiyyənin inkişafı və əhalinin sağlamlığının qorunması sahəsində ardıcıl, məqsədyönlü işlər görülmüş, müasir standartlara uyğun tibb müəssissələri yaradılmışdır. Lənkəran Mərkəzi Xəstəxanasının reanimasiya və uşaq cərrahiyyə şöbələri əsaslı təmir edilmiş, Şövu, Qrunba, Şağlaküçə, Xarxatan, Balıqçılar kəndlərində yeni feldşer məntəqələri və həkim ambulatoriyalar tikilib istifadəyə verilmişdir. İl ərzində rayon üzrə 6147 nəfər stasionar, 27080 nəfər xəstə ambulator müalicə almışdır.[54] Bölgədə profilaktika və sağlamlaşdırıcı tədbirlərə, kurort müalicəsi işi təşkil edilmiş, Lənkəran və Masallı şəhərlərində yaradılan sanatoriyalar tibbi xidməti yaxşılaşdırmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Astara Rayon xəstəxanasının əsaslı təmir və yenidənqurmasından sonra açılışında iştirak etmişdir. Beynəlxalq

[54] Lənkəran rayon icra hakiminin 2007-ci il üçün illik hesabatı // Lənkəran rayon İcra Hakimiyyətinin cari arxivi, vərəq-9.

standartlara uyğun təmir edilən 90 çarpayılıq xəstəxana rayon əhalisinin sağlamlığının qorunmasına kömək göstərmişdir.

Lerik rayon Mərkəzi Xəstəxanası əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilmişdir. Dörd mərtəbəli ümumi sahəsi 2100 kv-m olan 90 çarpayılıq xəstəxana müasir tipli tibbi avadanlıqla təchiz edilmişdir. Xəstəxana reanimasiya, cərrahiyyə və müxtəlif şöbələrdə 20 çarpayılıq 12 palatada 200 həkim və tibb işçisi xəstələrinə xidmət göstərmişdir.

2018-ci ildə bölgədə xəstəxanaların sayı 41-ə, ambulator-poliklinika müəssisələrinin sayı 179-a, xəstəxana çarpayılarının sayı 1832-ə, ambulator-poliklinika müəssisələrinin gücü 6451 nəfər olmuşdur. Bölgədə 32 xəstəxana, 128 ambulator-poliklinika müəssisələri təmir və ya yenidən inşa edilmişdir. Bölgənin tibb müəssisələrində işləyən həkimlərin sayı 1026 nəfər, orta tibb işçilərinin sayı 2876 nəfər olmuş, 11 özəl tibb müəssisəsi yaradılmışdır. Lənkəran və Cəlilabad şəhərlərində müasir standartlara uyğun diaqnostika mərkəzləri açılmışdır. Dövlət vəsaiti hesabına istismara yararsız şəhər, qəsəbə, kənd xəstəxanalar əsaslı təmir edilərək, yenidən fəaliyyətə başlamışdır.

**"İdmanın inkişafı"** adlı üçüncü paraqraf bölgədə idman sahəsində həyata keçrilən tədbirlərin tədqiqinə həsr edilmişdir. 2003-cü ilə qədər bölgədə bir Olimpiya İdman kompleksi mövcud idi və idman qurğularının 65 faizi yararsız vəziyyətə düşmüşdür. Azərbaycan Milli Olimpiya Komitəsi bölgədə idmanın inkişafı və maddi-texniki bazasının yaradılması istiqamətində mühüm siyasət müəyyən etmişdir. Bu siyasətdə başlıca məqsəd bölgədə idmanın maddi-texniki bazasını yaratmaq, mövcud idman qurğularının yenidən qurulması, bərpası və avadanlıqla təchizatını təşkil etmək olmuşdur. Regionların sosial-iqtisadi inkişaf Dövlət Proqramlarına uyğun olaraq respublikanın cənub-şərq bölgəsində yeni idman obyektlərinin, qurğularının və olimpiya komplekslərinin tikintisi həyata keçrilmiş və bu da bölgədə idmanın inkişafına kömək etmişdir. Bölgədə idman qurğularının bərpası, yeni obyektlərin istifadəyə verilməsi, Olimpiya idman növləri ilə yanaşı, qeyri idman növlərinin də inkişafını sürətləndirmişdir.

2007-ci ilin aprelin 10-da Prezident İlham Əliyev Masallı şəhərində Olimpiya İdman Kompleksinin açılışında iştirak etmişdir. Açılış mərasimində Avropa Olimpiya Komitəsinin Prezidenti Patrik Hikeyin də dəvət olunmuşdur. Bölgədə idmanın kütləviliyini artırmaq məqsədilə müxtəlif mədəni-kütləvi tədbirlər, idman yarışları və birinciliklər təşkil olunmuşdur. 2007-ci ildə Lənkəran rayonu üzrə boks idman növü üzrə dünya birinciliyində bir qızıl və iki gümüş medal, şahmat üzrə bir qızıl medal, qeyri-olimpiya idman növü üzrə beynəlxalq turnirdə bir qızıl medal, respublika birincilik və turnirlərdə isə 18 qızıl, 19 gümüş, 18 bürünc medal qazanılmışdır. 2012-ci il iyulun 31-də Cəlilabad şəhərində Olimpiya İdman Kompleksi istifadəyə verilmişdir. Kompleksdə 712 nəfərlik mini futbol meydançası, basketbol, voleybol, güləş, cüdo kimi idman zalları müasir qurğularla təmin edilmişdir. Burada Almaniyanın "Horinq" şirkətinin texnologiyası əsasında atıcılıq idmanı üzrə təlimlərin keçirilməsi üçün tam şərait yaradılmışdır.

2000-ci illə müqayisədə 2015-ci ildə respublikanın cənub-şərq bölgəsində idmanla məşğul olanların sayı 3 dəfədən çox artaraq 13256 nəfərə çatmış, iki yeni stadion yenidən inşa edilmiş və bölgədə mövcud idman qurğuları, meydançalar yenidən qurulmuş, ümumi sayı 403-ə çatdırılmışdır. Bölgədə idmanla məşğul olanların ümumi sayı əhalinin 5,1%-ni, fəal yaş qruplarına olan nisbətdə isə 12,3 %-ni təşkil etmişdir. I Avropa Oyunlarının məşəl marafonu Lənkəran, Astara, Lerik, Masallı, Cəlilabad rayonunun idmançıları tərəfindən uğurla həyata keçirilmiş, əsl idman bayramı kimi tarixə daxil olmuşdur. Bu beynəlxalq idman yarışında iştirak edən sərbəst güləş növü üzrə Astara idman məktəbinin yetirməsi Cəbrayıl Həsənov bürünc medala layiq görülmüşdür.[55] Bölgədə müxtəlif idman yarışlarının keçirilməsi, gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi və idmanın kütləviliyini təmin etmək məqsədilə uğurlu iş aparılmışdır. 2015-2018-ci illərdə bölgə üzrə idmanla məşğul olanların ümumi sayı 1435 nəfər təşkil etmiş, onlardan 56 nəfər idman ustası, 86 nəfər

[55]Astara rayon icra hakiminin 2016-cı il üçün illik hesabatı // Astara rayon İcra Hakimiyyətinin cari arxivi, vərəq-14.

idman ustalığına namizəd, 482 nəfər I dərəcəli idmançı, 132 nəfər beynəlxalq yarışlarda yer tutmuşlar. Bölgə idmançılarından 32 nəfəri Dünya çempionu, 98 nəfəri Avropa birincisi, 5 nəfəri isə İslam Həmrəyliyi oyunlarının qalibi olmuşdur. Bölgədə 5 olimpiya idman kompleksləri inşa edilmiş, 181 idman qurğu və kompleksi əsaslı təmir edilmişdir. Kompleks idman qurğularının sayı 18-ə çatdırılmışdır.

**"Mədəniyyətin inkişafı"**adlı dördüncü paraqraf bölgədə mədəniyyət sahəsində həyata keçrilən tədbirlərin tədqiqinə həsr edilmişdir. Bölgənin 2003-cü ilə qədərki müəssisələri fəaliyyət gostərsə də, şərait baxımından çox zəif idi. Sovet dövründən bəri burada təmir işləri aparılmamış və maddi texniki baza zəif idi. Mədəni sahədə ölkə üzrə keçrilən tədbirlərdə bölgənin xüsusi çəkisi zəif idi. 2004-cü ildən həyata keçrilən Dövlət Proqramları respublikanın cənub-şərq bölgəsində mədəniyyətin inkişafına müsbət təsir göstərmiş və tikinti-quruculuq işləri genişləndirilmişdir. 2004-cü il noyabrın 9-da Prezident İlham Əliyev Lənkəran şəhərinə gəlmiş N.B.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrının əsaslı təmirindən sonra açılışını etmişdir. Teatr müasir standartlara uyğun olaraq təmir edilmiş və bölgənin yeganə teatrı kimi fəaliyyət göstərmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 8 fevral tarixli 259 nömrəli Sərəncamı ilə Lənkəran şəhərində "Dairəvi qala" (Zindan) qala binasının təmiri məqsədilə Mədəniyyət və Turizm Nazirliyinə vəsait ayrılmışdır. Dövlət vəsaiti ilə hesablama təmir işləri aparılaraq qalanın əvvəlki görkəmi bərpa edilmişdir.

2012-ci il mayın 1-dən 5-nə kimi Masallı rayonunda Mədəniyyət və Turizm Nazirliyinin müvafiq əmri ilə uşaq və gənclər arasında muğam ifaçılarının VI Respublika müsabiqəsi keçirilmiş və bu tədbirdə respublikanın bütün şəhər və rayonlarından olan 300-ə yaxın gənc muğam ifaçıları iştirak etmişdir.[56]

Əgər 2003-cü ildə bölgədə 487 kütləvi kitabxana mövcud idisə, 2016-cı ildə komplektləşdirmə nəticəsində onların sayı 341-ə endirilmiş, hələ sovet dövründə kitabxana fondu zəif olan şəraiti olmayan

---

[56]Masallıda maraqlı və zəngin folklor tədbirləri // Palitra. – 2012, 1 iyun. – s. 6.

müəssissələr birləşdirilmişdir. Sovet dövrünü tərənnüm edən kitablar dövriyyədən çıxarılmış və 2016-cı ildə bölgə üzrə kitab fondu 2789,4 min nüsxə olmuşdur. Klub müəssissələrin komplektləşdirilməsi nəticəsində 2016-cı ildə onların sayı 286-a çatmış, burada milli rəqs mahnı və folklor nümunələri yaradılmışdır. 2003-cü illə müqayisədə, 2016-cı ildə muzeylərin sayında 60 faiz artım olmuş və ümumilikdə 2016-ci ildə bölgə üzrə muzeyə gələnlərin sayı 213,7 min nəfər olmuşdur. Bölgədə mədəni sahədə infrastruktur yaradılmış, mədəniyyət müəssisələrinin mədəni-kütləvi tədbirlərinin çərçivəsi xeyli genişləndirilmişdir. 2018-ci ildə bölgədə komplektləşdirmə nəticəsində kitabxanalarin sayı 328-ə çatmış, kitab fondu isə 2662,5 min nüsxə olmuşdur. Muzeylərin sayi 16 və buraya gələnlərin ümumi sayı 64,0 min nəfər olmuş, təkcə Lənkəran şəhərində 4 muzey fəaliyyət göstərmişdir. 2004-2018-ci illər ərzində Dövlət Proqramlarının icrası nəticəsində bölgədə 77 mədəniyyət müəssiəsi yenidən tikilmiş və ya bərpa işləri aparılmış, müasir avadanlıqla təmin edilmişdir. Bölgədə 7 uşaq incəsənət məktəbi 6 rəsm qalareyası və klublarda 389 özünəfəaliyyət dərnəkləri yaradılmışdır. Bölgədə 268 mədəniyyət sahəsi üzrə tədbir keçrilmiş və respublika, beynəlxalq səviyyədə bölgənin mədəniyyəti təbliğ olunmuşdur.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın nəticələri göstərilmiş, əsas müddəalar qeyd edilmiş, ümumi nəticəyə gəlinmiş, tövsiyə və təkliflər verilmişdir.

**Tədqiqatdan aşağıdakı nəticələrə gəlinir:**

Təqdim olunmuş dissertasiyada arxiv sənədləri, mətbuat materialları, statistik toplular və digər mühüm qaynaqlar əsasında Azərbaycan Respublikasının cənub-şərq bölgəsinin 2003-2018-ci illərdə sosial-iqtisadi və mədəni inkişafı xüsusiyyətləri araşdırılmış, bu dövr ərzində ölkədə keçirilən sosial-iqtisadi islahatlar dəyərləndirilmiş, mövcud inkişaf məsələləri təhlil olunmuşdur. Göstərilən dövr ərzində respublikanın cənub-şərq bölgəsində yaradılmış yeni müəssisələr də əhəmiyyətli dərəcədə artmışdır. Belə ki, bölgədə 2004-cü ildə 200, 2005-ci ildə 204, 2006-cı ildə 198, 2007-ci ildə 265, 2008-ci ildə isə 215, ümumilikdə isə 1082 yeni yaradılmış müəssisə fəaliyyətə başlamışdır. Əgər bölgə sənayesində 2005-ci ildə 3089 nəfər işçi çalışdığı

halda bu rəqəm 2010-cu ildə 3895 nəfərdən çox olmuşdur. Yeni çay fabrikləri, şərab zavodları işə salınmışdır.

Bölgənin səhiyyə sisteminin yenidən qurulması işi həyata keçirilmiş Lənkəran, Astara, Lerik, Masallı, Cəlilabad, Yardımlı rayon mərkəzi xəstəxanaları yenidən qurulmuş, tibbi-texniki avadanlıqla təchiz edilmişdir. Lənkəran, Cəlilabad şəhərlərində müasir standartlara uyğun diaqnostika mərkəzləri yaradılmışdır. Masallı şəhərində akademik Zərifə Əliyeva adına Elmi Tədqiqat Göz Xəstəlikləri İnsitititutu fəaliyyətə başlamışdır.Belə ki, bölgə üzrə xəstəxanaların sayı 2003-cü ildə 34 idisə, 2008-ci ildə isə 38-ə çatdırılmışdır. Dövlət Proqramlarının icrası dövründə bölgədə ümumilikdə 175,2 km-dən çox su, 58,1 km-dən çox kanalizasiya xətti çəkilmiş, 50-dən çox su artezian quyusu  tikilmiş və yenidənqurulmuş, 8 şəhər və rayon mərkəzlərində (Lənkəran, Yardımlı, Astara, Cəlilabad, Lerik, Masallı, Liman, Göytəpə) həyata keçirilən su təchizatı ilə yanaşı kanalizasiya layihələri başa çatdırılmışdır. Belə ki, bölgədə 2 elektrik stansiyası yenidən tikilmiş, 25 yarımelektrik stansiyası yenidən qurulmuş, 345 kilometr yeni elektrik xətləri çəkilmiş, 452 kilometr elektrik xətləri əsaslı təmir olunmuş, 156 transformator quraşdırılmışdır. Belə ki, 2005-2018-cü illər ərzində bölgədə 871 km-dən çox qaz xətti çəkilmiş və ya təmir edilmiş, 8 rayon və şəhər üzrə 331 yaşayış məntəqəsi və yaşayış massivi qazlaşdırılmışdır. Bölgə üzrə sənaye məhsulunun həcmi qeyri-dövlət sektorunda xüsusi çəkisi ilbəil artmışdır. 2010-cu ildə respublikanın cənub-şərq bölgəsi üzrə sənaye məhsulunun 89,7 faizi Masallı, Lənkəran və Astara rayonlarının payına düşmüşdür. Bölgə sənayesində 2005-ci ildə 3069 nəfər işsi çalışdığı halda, 2010-cu ildə bu göstərici 3895 nəfərə bərabər olmuşdur.

Dövlət layihələri nəticəsində bölgələrimizdə turuzmin beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, ölkəmizin turizm üçün olduqca real bir ölkəyə çevrilməsi ilə bağlı tədbirlər həyata keçirilməsi ilə bu sahədə xeyli irəliləyişə nail olmuşdur. Bölgəyə gələn tursitlərin, ələlxüsus əcnəbilərin sayında artım, müvafiq infrastrukturun yaradılması və inkişafı ilə əlaqədar olmuşdur. 2010-cı ildə bölgə üzrə mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 68

idisə, 2014-cü ildə onların sayı 75-ə çatdırılmışdır. 2000-ci ildə bölgə üzrə poçt, telefon, teleqraf müəssisələrinin sayı 147 idisə, 2016-cı ildə bu rəqəm 178-ə çatdırılmışdır. 2000-ci ildə bölgə üzrə hər 100 ailəyə düşən telefon aparatlarının sayı 37 idisə, 2012-ci ildə bu rəqəm 54-ə çatmışdır. "Azərspace-1", "Azərspac e-2" və "Azərsky"adlı peyklərin orbitə buraxılması bölgənin milli informasiya və kommunikasiya infrastrukturunun müasir texnologiyaları əsasında qurulması, informasiya cəmiyyətinin təşkili nəticəsində əhaliyə göstərilən elektron xidmətlərin keyfiyyəti yüksəlmişdir.

Masallı, Yardımlı, Cəlilabad şəhərlərinin avtovağzal stansiyaları yenidən təmir edilərək istifadəyə verilmişdir. 2005-ci ildə avtomobil nəqliyyatı ilə bölgə üzrə yükdaşımanın həcmi 4231 min ton idisə, 2016-cı ildə bu rəqəm 7879 min tona çatdırılmışdır. Ələt-Astara avtomobil yolunun tikintisi bölgənin mərkəz ilə əlaqəsini xeyli yaxşılaşdırmış, Lənkəran şəhərində inşa edilmiş Hava Limanı regionun xaricə çıxışını asanlaşdırmışdır. 2003-2018-cü illərdə respublikanın cənub-şərq bölgəsində yol şəbəkələrinin bərpası işi genişləndirilmiş, bu dövr ərzində bölgə üzrı 892 km avtomobil yolları, 50-dən çox körpü ilə yanaşı tunel tikilmiş və əsaslı təmir olunmuşdur.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları (2004-2018-ci illər) bölgədə kənd təsərrüfatının inkişaf istiqamətlərini müəyyənləşdirmişdir. Lənkəran, Astara rayonları üzrə çayçılıq, sitrus meyvəçiliyi, tərəvəzçilik, Cəlilabad, Masallı rayonları üzrə taxılçılıq, tərəvəzçilik, Lerik, Yardımlı rayonları üzrə böyük heyvandarlıq təsərrüfatları yaradılmışdır. 2016-cı ildə bölgə üzrə kənd təsərrüfatı məhsullarının istehsalında artım daha çox gözə çarpır. Belə ki, çay istehsalı 962 ton, üzüm istehsalı 1043 ton, dənli və buğda istehsalı 264135 ton, iribuynuzlu mal-qaranın sayı 338362 baş olmuşdur. Respublikanın cənub-şərq bölgəsinin kənd təsərrüfatının taxılçılıq, çayçılıq, üzümçülük, heyvandarlıq, sitrus meyvəçiliyi, tərəvəzçilik və bağçılıq təsərüfatı tədqiqata cəlb olunmuşdur. Nəticədə, 2000-ci illə müqayisədə 2018-ci ildə bölgəsi üzrə heyvandarlığın inkişafı statistik matreallarda əksini tapmış, **i**ri buynuzlu mal-qara sayı 328681, qoyun və keçilərin sayı 450675, quşların sayı 2372190, arı ailələri sayı 60981, ət istehsalı isə 27537 ton olmuşdur. Belə ki, 2013-2018-ci

illərdə bölgə üzrə sitrus meyvəçiliyi 1411 hektar, tərəvəzçilik və bağçılıq üzrə isə 1789 ha artım müşahidə olunmuşdur. Bölgə üzrə ümumilikdə 8124 ha sahədə sitrus bağları və 11426 ha sahədə isə tərəvəzçilik və bağçılıq təsərrüfatları mövcud olmuşdur. Dövlətin dəstəyi ilə böyük təsərrüfat subyektləri yaradılmışdır. Lənkəran, Astara və Masallı rayonlarında sitrus meyvəçiliyi və tərəvəzçilik sahələri daha geniş inkişaf etmişdir.

Bölgə üzrə 250-dən çox təhsil müəssisəsi yenidən tikilərək maddi texniki baza ilə təmin edilmişdir. Bölgədə elmi mərkəz və ali təhsilin inkişafı təmin edildi. 2018-ci ildə bölgədə ümumi təhsil müəssisələrinin sayı 557-ə, məktəbəqədər təhsil müəssisələrinin sayı isə 124-ə çatmış və burada təhsil alanların ümumi sayı 131709 nəfər olmuşdur. Lənkəran Dövlət Universitetinin təhsil səviyyəsi və tələbə sayı xeyli artdı. Universitetin üç tədris korpusu müasir standartlara uyğun inşa edilmiş, tələbə və müəllimlər üçün yataqxana istifadəyə verilmişdir. Mədəniyyət müəssisələrinin tərkibində milli folkloru əks etdirən müxtəlif rəqs və sənət qrupları yaradılmışdır. 2016-cı ildə bölgə üzrə kütləvi kitabxanaların sayı 341, klub müəssisələrinin sayı 286, muzeylərin sayı isə 16 olmuşdur. 2004-2018-ci illər ərzində Dövlət Proqramlarının icrası nəticəsində bölgədə 77 mədəniyyət müəssisəsi yenidən tikilmiş və ya bərpa işləri aparılmış, müasir avadanlıqla təmin edilmişdir. Bölgədə 7 uşaq incəsənət məktəbi 6 rəsm qalereyası və klublarda 389 özünəfəaliyyət dərnəkləri yaradılmışdır. Bölgədə 268 mədəniyyət sahəsi üzrə tədbir keçrilmiş və respublika, beynəlxalq səviyyədə bölgənin mədəniyyəti təbliğ olunmuşdur.

**Dissertasiyanın məzmunu müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Müstəqillik dövründə Azərbaycan Respublikasının cənub-şərq bölgəsinin inkişaf etdirilməsi siyasəti. İlham Əliyev dövrü. – Bakı: Turxan NPB, – 2020, – 408 s.

2. Azərbaycan Respublikasının cənub-şərq bölgəsində turizmin inkişafı (2003-2018) // – Bakı: Turizm və qonaqpərvərlik tədqiqatları, – 2019. №1, – s. 40-47.

3. Azerbaycan Cumhuriyeti'nin Güneydoğu bölgesinde sağlık hizmetlerinin organizasyonu ve gelişimi (2003-2018) // – İstanbul: Akademik Tarih ve Düşünce Dergisi, 2019. №2, – s. 817-832.

4. Azərbaycan Respublikasının cənub-şərq bölgəsində mədəniyyətin inkişafı istiqamətində uğurlu siyasət (2003-2018) // – Bakı: Turizm və qonaqpərvərlik tədqiqatları, – 2019. №1, – s. 142-151.

5. Azərbaycan Respublikasının cənub-şərq bölgəsində rabitənin, informasiya və kommunikasiya texnologiyalarının (İKT) inkişafı (2003-2017) // – Bakı: Dövlət İdarəçiliyi: Nəzəriyyə və təcrübə, – 2019. №1(69), – s. 189-198.

6. Azərbaycan Respublikasının cənub-şərq bölgəsində idmanın inkişafı (2003-2018) // – Bakı: Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, – 2019. №1, – s. 146-155.

7. Azərbaycan Respublikasının cənub-şərq bölgəsində yol və nəqliyyat infrastruktunun inkişafı (2003-2018) // – Bakı: AMEA Tarix İnsitutu Elmi Əsərlər, – 2019. №79, – s. 125-134.

8. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi illərində respublikanın cənub-şərq bölgəsinin sosial-iqtisadi inkişafı (1969-1982) // – Bakı: Deticaded to the 96th anniversary of the national leader, Heydar Aliyev of Azerbaijan BEU III International Scientific Conference of Young Researchers, – 29-30 aprel 2019, – s. 868-871.

9. Azərbaycan Respublikasının cənub-şərq bölgəsində ümumtəhsilin inkişafı (2003-2018) // – Bakı: Deticaded to the 97th anniversary of the national leader, Heydar Aliyev of Azerbaijan IV international scientific conference of younf reserchers, – 05 iyun 2020. – s. 414-418.

10. Azərbaycan Respublikasının cənub-şərq bölgəsində yeyinti sənayesinin inkişafı və bu istiqamətdə uğurlu iqtisadi siyasət // – Bakı: Dövlət İdarəçiliyi: Nəzəriyyə və təcrübə, – 2020. №1(69), – s. 199-205.

11. Azərbaycan Respublikasının cənub-şərq bölgəsində sitrus meyvəçiliyi, tərəvəzçilik və bağçılığın inkişafı (2003-2018) // – Bakı: Gənc Tədqiqatçı Elmi-Praktiki jurnal, – 2020, №6 (2), – s. 143-147.

12. Azərbaycan Respublikasının cənub bölgəsində çayçılıq təsərrüfatının inkişafı tarixindən (2003-2018-ci illər) // – Lənkəran:

Lənkəran Dövlət Universitetinin Elmi Xəbərləri. Humanitar elmlər seriyası, – 2020. №1, – s. 104-109.

13. Azərbaycan Respublikasının cənub-şərq bölgəsinin iqtisadi inkişafı və sahibkarlıq mühitinin formalaşdırılması (2003-2018-ci illər) // – Bakı: Rəqəmsal iqtisadiyyat: Azərbaycan yeni iqtisadi inkişaf mərhələsində mövzusunda beynəlxalq konfrans, – 25 noyabr 2020. – s. 227-231.

14. Azərbaycan Respublikasının cənub-şərq bölgəsində kommunal təsərrüfatının təşkili tarixi (elektrik təsərrüfatı üzrə 2004-2018-ci illər) // – Mingəçevir: Regional inkişafın təmin olunmasında innovativ tendensiyalar: reallıqlar və müasir çağırışlar mövzusunda konfrans, – 11-12-dekabr 2020. – s. 413-415.

15. Azərbaycan Respublikasında informasiya-komunikasiya texnologiyaların (İKT) inkişaf tarixi (Respublikanın cənub-şərq bölgəsinin materialları əsasında 2003-2018-ci illər) // – Bakı: Azərbaycan Texniki Universitetinin 70 illik yubileyinə həsr olunmuş "Dördüncü sənaye inqilabının texnoloji perspektivləri: sənaye interneti, kiber-fiziki sistemlər və intellektual texnologiyalar" mövzusunda Respublika elmi-texniki konfransının materialları, – 26-27 noyabr 2020, – s. 783-787.

16. Lənkəran şəhərinin içməli su təsərüfatının bərpası tarixindən (2005-2018) // Lənkəran: "İnformasiya, elm, texnologiya və universitet perspektivləri" mövzusunda doktorantların və gənc tədqiqatçıların onlayn respublika elmi konfransı, – 18-19 dekabr 2020, – s. 212 – 213.

17. Развитие инфраструктурного образования в Азербайджанской Республике (на основе материалов юго-восточного региона республики) // – Москва: Вопросы истории, – 2021. №2, – с. 88-93.

18. Azərbaycan Respublikasının cənub-şərq bölgəsində heyvandarlıq təsərrüfatının inkişafı tarixindən (2003-2018-ci illər) // – Lənkəran: Lənkəran Dövlət Universitetinin Elmi Xəbərləri. Humanitar elmlər seriyası, – 2021. №1, – s. 33-41.

19. From the date of organisation of construction work in the south-eastern region of the Republic of Azerbaijan (2003-2018) // –

Boston: Fundamental and applied research in the modern world. Abstracts of the 7th International scientific and practical conference. Boscience Publisher. – 17-19 february 2021. – p. 110-118.

20. Azərbaycan Respublikasının cənub-şərq bölgəsində taxılçılıq və çəltikçilik təsərrüfatlarının inkişafı tarixindən (2003-2018-ci illər) // – Bakı: Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, – 2021. №1, – s.149-157.

21. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı tarixindən (respubilkanin cənub-şərq bölgəsinin materiallari əsasında 2003-2018-ci illər) // – Bakı: "Azərbaycan Respublikası 30 ildə: Cənubi Qafqazın güc mərkəzi" mövzusunda Respublika elmi konfransı tezisləri, AMEA Qafqazşünaslıq İnstitutu, – 14 sentyabr 2021, s. 41-43.

22. Azərbaycan Respublikası 2004-2018-ci illərdə iqtisadi inkişafın yeni mərhələsində (Respublikanın cənub-şərq bölgəsinin materialları əsasında) // Lənkəran: "Azərbaycan yeni inkişaf mərhələsində – qloballaşma və postpandemiya dövründə ərzaq və qida təhlükəsizliyi müasir vəziyyət, çağırışlar, perspektivlər" mövzusunda (onlayn – distant formatda) beynəlxalq elmi-praktik konfransının materialları. Beynəlxalq elmi-praktiki konfrans. – 8-9-oktyabr 2021. – s. 401-404.

23. Azərbaycan Respublikasının cənub-şərq bölgəsində üzümçülük təsərrüfatının inkişafı tarixindən (2003-2018-ci illər) // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, – 2021. № IV, – s. 93-97.

24. Из истории развития науки и высшего образования в Юго-восточном регионе Азербайджанской Республики (2003-2018 годы) // – Москва: Вопросы истории, – 2022. №1, – с. 176-181.

25. From the history of socio-economic development of Lankaran (2004-2018) // – Lankaran: Hodja Akhmet Yassavi 6th International Conference on Scientific Research, – 13-15-may 2022. – s. 126-130.

26. Azərbaycan Respublikasının cənub-şərq bölgəsində sənayenin inkişafı tarixindən (2003-2018-ci illər) // – Lənkəran: Lənkəran Dövlət Universitetinin Elmi Xəbərləri. Humanitar elmlər seriyası, – 2022. №1, – s. 45-54.

27. The place and role of Professor Farman Guliyev in the development of scientific and practical fundamentals of tea farming in Azerbaijan // – Lankaran: International tea conqress “industrial, cultural and economic dimensions”, – 13-15-may 2022. – p. 11-15.

28. “Regional Socio-Economic Development State Programs (2004-2018)” as the main provider in the development of the southern region of the Republic of Azerbaijan // – Ankara: V International social sciences and innovation congree date and place, – 12-13 November 2022. – p. 778.

29. From the history of the development of citrus farming in the south-east region of the Republic of Azerbaijan (2003-2018 years) // – Lankaran: International Subtropical and Citrus Conference, December 8-9, 2022. Lankaran State University, – p. 91-92.

30. Azerbaycan Cumhuriyyetinin Güneydoğu bölgesinde tarım sektörünün gelişim tarihinden (2003-2018 yılında) // – İstanbul: Akademik Tarih ve Düşünce Dergisi, 2023. №5, – s. 1349-1360.

Dissertasiyanın müdafiəsi 24 noyabr 2023-cü il tarixdə saat $14^{00}$-da AMEA Naxçıvan Bölməsi nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, I mərtəbə, akt zalı

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Naxçıvan Bölməsinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 20 oktyabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 19.10.2023
Kağızın formatı: 60/84, 16/1
Həcm: 91.837
Tiraj: 100